

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


SƏS

№ 221 (6904)

2 dekabr 2023-cü il.
Qiymәti 60 qәpik


## Həştərxanda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi qeyd edilib



3

# Prezident İlham Əliyev Dünya İqlim Fəaliyyəti Sammitinin açılış mərasimində iştirak edib



2

# Növbəti dərs

## *Yaxud, ATƏT tribunasından Azərbaycana qarşı püskürdülən erməni yalanları*




6

## Nə kölə olaq, nə kölə edək...



8

## "Əli Kərimli ABŞ-ın maliyyəsinə göz dikib"



11

## 3 dekabr - Beynəlxalq Əlillər Günüdür




12

## Qızılca – xof, yoxsa təhlükə?



15

## Dövlət orqanları yerli avtomobilləri niyə almır?



14

# Prezident İlham Əliyev Dünya İqlim Fəaliyyəti Sammitinin açılış mərasimində iştirak edib








Dünən Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası - COP28 çərçivəsində təşkil olunan Dünya İqlim Fəaliyyəti Sammitinin açılış mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan və BMT-nin Baş katibi Antonio Quterreş dövlətimizin başçısını qarşıladılar. Sonra birgə foto çəkdirildi.

## "Bəzi üçüncü tərəflərin bölgədə destruktiv fəaliyyəti sülhə xidmət etmir"

**Dünən xarici işlər naziri Ceyhun Bayramov Şimali Makedoniyanın paytaxtı Skopye şəhərində təşkil olunan Azərbaycan tədqiqatları üzrə II Avropa Konfransının xüsusi sessiyasında çıxış edib.**

Xarici İşlər Nazirliyinin məlumatında deyilir ki, çıxış zamanı nazir Ceyhun Bayramov postmünaqişə dövründə Azərbaycanın xarici siyasət prioritetləri, Azərbaycan və Ermənistan arasında münasibətlərin perspektivləri, habelə regional vəziyyət barədə ölkəmizin mövqeyini diqqətə çatdırıb. Xarici işlər naziri sentyabrın 19-da keçirilmiş antiterror tədbirlərini səciyyələndirən amillər barədə məlumat verib. Nazir Ermənistan tərəfindən sülh prosesinə qarşı törədilən manevrləri qeyd edib. Nazir ölkəmizin bölgədə apardığı bərpa və quruculuq işləri barədə məlumat verib. Bununla yanaşı, Ermənistanın ölkəmizə qarşı törətdiyi mina təhdidlərini xüsusi vurğulayıb.

Nazir, həmçinin Ermənistanın hərbi potensialını gücləndirməyə və bəzi üçüncü tərəflərin bölgədə destruktiv fəaliyyətinə diqqət çəkib. Bu kimi fəaliyyətin bölgədə sülh və sabitliyə xidmət etmədiyini vurğulayıb.

Antiterror tədbirlərindən sonra ölkəmizə qarşı qərəzli və təxribatçı ittihamların regiona səfər edən, eləcə də Ermənistanda aktiv fəaliyyət göstərən BMT-nin ixtisaslaşmış qurumlarının nümayəndələrinin hesabat və bəyanatları ilə ziddiyyət təşkil etdiyi və ölkəmizə qarşı iddiaların əsassızlığının sübut olunduğu xatırlanıb.

Xarici işlər naziri, həmçinin son illər ərzində Azərbaycanın beynəlxalq əhəmiyyətli təşəbbüsləri diqqətə çatdırıb, çoxtərəfli diplomatiya sahəsində ölkəmizin fəal rolundan bəhs edib.

Son dövrlərdə bölgədə və dünyada baş verən hadisələr




fonunda enerji təhlükəsizliyinin artan əhəmiyyətindən bəhs edən nazir Ceyhun Bayramov, enerji təhlükəsizliyinin təmin edilməsi, alternativ enerji sahəsində səylərə, eləcə də nəqliyyat dəhlizlərinin şaxələndirilməsi istiqamətində çoxtərəfli əməkdaşlığın genişləndirilməsinin vacibliyinə diqqət yönəldib. Daha sonra xarici işlər naziri Ceyhun Bayramov tədbir iştirakçılarının çoxsaylı suallarını cavablandırıb.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (AIR Center) təşkilatçılığı və Xarici İşlər Nazirliyinin dəstəyi ilə keçirilmiş konfransda Avropadan 30-dan çox düşüncə və tədqiqat mərkəzinin nümayəndələri, habelə nüfuzlu mütəxəssislər iştirak edib.

İlk dəfə ötən il Varşavada keçirilmiş Azərbaycan tədqiqatları üzrə Avropa Konfransı ölkəmizlə bağlı siyasi, iqtisadi və mədəni mövzular daxil olmaqla fərqli sahələr üzrə tədqiqatların təşviq edilməsi, eləcə də Azərbaycan barədə məlumatların dünya ictimaiyyətinə düzgün çatdırılması və akademik səviyyədə obyektiv təhlillərin aparılmasına töhfə məqsədini daşıyır.

## Türkiyənin Bakıdakı səfiri Cahit Bağçı Azərbaycana təşəkkür edib

Türkiyənin Bakıdakı səfiri Cahit Bağçı Azərbaycana təşəkkür edib. SİA xəbər verir ki, o, bu barədə "X"də yazıb. "Ölkəmizdə baş verən dağıdıcı zəlzələ ilə əlaqədər kədərimizi öz kədəri bilən, bizimlə tək ürək olan qardaş Azərbaycana növbəti dəfə təşəkkür edirik. Bu gün Diaspora Dəstək Fondunun təşəbbüsü ilə, "qardaşlarımız üşüməsin" prinsipi ilə hazırlanmış üçüncü yardımı Kahramanmaraşa yola saldıq. Komitə rəhbəri Fuad Muradova və komandasına təşəkkür edirik", - o bildirib. Səfir qeyd edib ki, biz birlikdə güclüyük: "Yaralarımızı birlikdə sarımağa davam edəcəyik".



Xatırladaq ki, bu gün Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Azərbaycan Diasporuna Dəstək Fondu havaların soyuması ilə əlaqədar bu ilin fevralında Türkiyə Respublikasında baş vermiş zəlzələdən zərər çəkmiş şəxslərə dəstək məqsədilə Kahramanmaraş bölgəsinə quru yolu ilə humanitar yardım göndərib.

# Həştərxanda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi qeyd edilib












***Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş tədbirlərdə iştirak etmək üçün Həştərxanda səfərdə olan Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyevin rəhbərlik etdiyi nümayəndə heyəti bu şəhərdə Ulu Öndərin adını daşıyan xiyabana gələrək onun abidəsini ziyarət edib.***




Ulu Öndər Heydər Əliyevin abidəsinin önünə gül dəstələri düzülüb, onun əziz xatirəsi ehtiramla yad edilib. Sonra qonaqlar "Əbədi məşəl" memorialını ziyarət edərək İkinci Dünya müharibəsi qəhrəmanlarının xatirəsini anıb, memorialın qarşısına gül dəstələri düzüblər.

Həştərxanda səfərdə olan Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyevin Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru İqor Babuşkin ilə görüşü olub.

Həştərxan vilayətinin qubernatoru İqor Babuşkin bu il vilayətdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş bir sıra təntənəli tədbirlərin keçirildiyini qeyd edib. O vurğulayıb ki, xalqlarımızı səmimi dostluq münasibətləri birləşdirir. Qubernator əmin olduğunu bildirib ki, ölkələrimiz möhkəm tərəfdaşlığı davam etdirəcək və gələcəkdə də belə tədbirlər təşkil olunacaq. İqor Babuşkin diqqətə çatdırıb ki, bu ay onun Azərbaycana səfəri və Prezident İlham Əliyev ilə görüşü gözlənilir.

Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev, öz növbəsində, səmimi qəbula görə Həştərxan vilayətinin qubernatoru İqor Babuşkinə təşəkkürünü bildirib. O qeyd edib ki, Həştərxanda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş silsilə tədbirlərin keçirilməsi Azərbaycanda yüksək qiymətləndirilir və mehriban qonşuluq münasibətlərinin təzahürüdür.

A.Fərzəliyev xatırladıb ki, bu ilin aprelində Həştərxan vilayətinin qubernatoru İqor Babuşkinin rəhbərliyi ilə keçirilən "Xəzər -dostluq dənizi" motoyürüş karvanının iştirakçıları Bakıya gəliblər. Bu, münasibətlərimizin yüksək səviyyəsindən xəbər verir. Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Ulu Öndər Heydər Əliyevin xatirəsini əziz tutduqları üçün həştərxanlılara təşəkkürünü bildirib.

Abşeron Rayon İcra Hakimiyyətinin başçısının rəhbərlik etdiyi nümayəndə heyəti



Həştərxan vilayətinə səfər çərçivəsində Heydər Əliyev adına 11 saylı orta ümumtəhsil məktəbini ziyarət edib. SİA xəbər verir ki, tədbirdə nümayəndə heyətinin üzvləri, Milli Məclisin deputatları Sabir Hacıyev və Əminə Ağazadə, eləcə də SƏS Media Qrupunun rəhbəri Bəhruz Quliyev, "Bakinski raboçi" qəzetinin baş redaktoru İlqar Hüseynov, media təmsilçiləri, ictimai xadimlər iştirak ediblər. Onlar Ulu Öndərin 100 illiyinə həsr olunmuş tədbirlərdə iştirak edən şagirdlərin mükafatlandırılması mərasiminə qatılıblar.

Əvvəlcə qonaqlar məktəbin fəaliyyəti barədə məlumatlandırılıb. Heydər Əliyev adına 11 saylı orta ümumtəhsil məktəbinin direktoru Tatyana Tixomirova bildirib ki, yubiley tədbirləri çərçivəsində məktəbdə şeir, inşa və rəsm müsabiqələri keçirilib. O əlavə edib ki, bu təhsil müəssisəsi iki dövləti möhkəm tellərlə bir-birinə bağlayır. Öz növbəsində, Həştərxan vilayəti hökumətinin sədr müavini İness Qorina Rusiya və Azərbaycanı bütün sahələrdə möhkəm və çoxillik münasibətlərin bağladığını vurğulayıb. Onun sözlərinə görə, belə tədbirlərin keçirilməsi xalqlarımız arasında mehriban qonşuluq və dostluq münasibətlərinə böyük töhfədir.

Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev Ümummilli Liderin adını daşıyan məktəbin əhəmiyyətini vurğulayaraq, bu təhsil müəssisəsinin Heydər Əliyevə həsr olunmuş tədbirlərdə fəal iştirakını qeyd edib. O bildirib ki, Heydər Əliyevin anadan olmasının 100 illiyinin qeyd olunması Həştərxan ilə Azərbaycan arasında mehriban qonşuluq əlaqələrinin genişləndirilməsinə öz töhfəsini verir. Sonra Ulu Öndərin 100 illiyinə həsr olunmuş tədbirlərdə iştirak edən müəllim və şagirdlərin mükafatlandırılma mərasimi keçirilib.

# SPECA-ya üzv dövlətlər əsl müstəqil ölkələrdir...




## *PREZİDENT İLHAM ƏLİYEV: "Dünyada uğursuz, asılı, bir neçə ağaya xidmət edən ölkələrin sayı az deyil, onlardan biri Ermənistandır"*




***Əlverişli coğrafi mövqeyi, regional və beynəlxalq nəqliyyat yollarının üstündə yerləşməsi, təbii resursları, iqtisadi və hərbi gücü ilə Cənubi Qafqazın lider dövləti hesab olunan Azərbaycan həm də dünyada etibarlı tərəfdaş kimi qəbul olunur. Bunun da səbəbi son 20 ildə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Prezident İlham Əliyevin həyata keçirdiyi tam müstəqil siyasətdir. Məhz İlham Əliyevin sözünə və vədinə sadiqliyi, irəli sürdüyü qlobal təşəbbüsləri Azərbaycanın nüfuzunu və siyasi çəkisini gündən-günə artırmaqdadır.***

Bu gün dünyanın siyasi xəritəsində elə bir Azərbaycan var ki, onun dəstəyi olmadan, rəyi nəzərə alınmadan hər hansı regional prosesləri müzakirə və həll etmək mümkün deyil. İstənilən mövzulu qlobal danışıqların aparıldığı platformalarda ölkəmiz mütləq təmsil olunur və əsas söz sahibi kimi çıxış edir. Bütün bunlar bir daha təsdiq edir ki, İlham Əliyevin tam müstəqil siyasəti Azərbaycanı müasir dünyanın yeni çağırışlarına cavab verən ölkəyə çevirib. Bunun nəticəsidir ki, bu gün Azərbaycanın regionda yaratdığı yeni reallıqlar beynəlxalq birlik tərəfindən qəbul olunur və dəstəklənir.

Azərbaycan Prezidenti İlham Əliyevin noyabrın 24-də Bakıda, Heydər Əliyev Mərkəzində keçirilmiş BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının – SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşündəki çıxışı bir neçə cəhətdən mühüm əhəmiyyət daşımaqdadır.

### “SPECA-YA ÜZV DÖVLƏTLƏR İSƏ ƏSL MÜSTƏQİL ÖLKƏLƏRDİR, ÇÜNKİ MÜSTƏQİL XARİCİ VƏ DAXİLİ SİYASƏT APARIRLAR”

Siyasi sabitlik amilinə toxunan Azərbaycan Prezidenti İlham Əliyev qeyd etdi ki, sabitlik olmadan heç bir iqtisadi inkişafdan söhbət gedə bilməz. Bu gün dünyanın müxtəlif bölgələrində müharibələr, münaqişələr, qanlı toqquşmalar geniş vüsət alıb. SPECA-ya üzv ölkələrində isə sülh, sabitlik, əmin-amanlıq hökm sürür, inkişaf, quruculuq prosesləri uğurla gedir. Bu, dövlətlərimizin və xalqlarımızın böyük nailiyyəti və uğurudur.

Beynəlxalq riyakarlığın təzahüründən söz açan ölkə rəhbəri qeyd etdi ki, dünyada uğursuz, asılı, iki və ya daha çox stulda oturmaq istəyən, bir neçə ağaya xidmət edən, özünü daha böyük dövlətlərin qarşıdurma arenasına çevirən ölkələrin sayı az deyil. Ermənistan kimi ölkəyə, sözün əsl mənasında, müstəqil ölkə demək olmaz. Belə ölkələrin siyasəti xalqlarının iradəsinə əsaslanmır, onların taleyi xarici sponsorların əlindədir: ”Dünyada uğursuz, asılı, iki və ya daha çox stulda oturmaq istəyən, bir neçə ağaya xidmət edən, özünü daha böyük dövlətlərin qarşıdurma arenasına çevirən ölkələrin sayı az deyil. Onlardan biri Azərbaycanın qonşusu Ermənistandır”.

”Belə ölkələrə, sözün əsl mənasında, müstəqil ölkə demək olmaz. Belə ölkələrin siyasəti xalqlarının iradəsinə əsaslanmır, onların taleyi xarici sponsorların əlindədir. SPECA-ya üzv dövlətlər isə əsl müstəqil ölkələrdir, çünki müstəqil xarici və daxili siyasət aparırlar”,-deyə Prezident İlham Əliyev vurğulayıb.

Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığa xüsusi önəm verdiyini diqqətə çatdıran Prezident İlham Əliyev ölkəmizin bu regiondakı dövlətlərlə əlaqələrini belə xarakterizə edib: ”Azərbaycanı və Mərkəzi Asiya ölkələrini xalqlarımızın çoxəsrlik qardaşlıq münasibətləri bağlayır. Ortaq mədəni köklər dövlətlərarası əlaqələrin möhkəm bünövrəsini təşkil edir. 30 ildən artıqdır ki, biz müstəqil dövlətlər kimi həm ikitərəfli, həm çoxtərəfli formatda fəal şəkildə qarşılıqlı fəaliyyət aparırıq, bir-birimizin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyirik, iqtisadi əlaqələri fəal şəkildə inkişaf etdiririk. Mərkəzi Asiya və Azərbaycan artan iqtisadiyyatı, demoqrafiyası və geosiyasi potensialı ilə dünya siyasətində strateji əhəmiyyətə malik olan vahid tarixi-mədəni coğrafi regiondur”.

Beləliklə də, dövlət başçımızın söylədiyi kimi, bu gün Azərbaycan regionun yeganə ölkəsidir ki, düşünülmüş və milli maraqlara söykənən xarici siyasəti ilə regional təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl və sistemli addımlar atır. Hazırda Azərbaycan dövlətinin həyata keçirdiyi enerji layihələri, regional inteqrasiyaya xidmət edən əməkdaşlıq formatları Cənubi Qafqazda sabitliyin təmin edilməsində mühüm rol oynayır. Bununla yanaşı, Azərbaycan dünyada sülhyaratma prosesində fəal iştirak edir, səmərəli təklif və təşəbbüslərlə çıxış edir, öz praktik fəaliyyəti ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə dəyərli töhfələr verir. Bir sözlə, dövlət başçısının söylədiyi kimi

### AZƏRBAYCANIN GÜCLÜ İQTİSADİYYATI MÜSTƏQİL XARİCİ SİYASƏT KURSU HƏYATA KEÇİRMƏYƏ İMKAN YARADIR

Bəli, SPECA-nın yaranmasından keçən müddət ərzində həm regionda, həm də dünyada müxtəlif hadisələr yaşanıb. Heydər Əliyev Mərkəzində keçirilən Zirvə toplantısında dövlət başçısı İlham Əliyev ölkəmizin iqtisadiyyatında baş verən inkişafın və gələcəkdəki potensialların qiymətləndirilməsi ilə bağlı çıxışında Azərbaycan iqtisadiyyatının dünənini bu gününü şərh edərək, gələcəkdəki hədəflərin anonsunu verdi. Son 20 il ərzində Azərbaycanın ümumi daxili məhsulu 4 dəfə artıb. Büdcə gəlirləri 30 dəfədən, xarici ticarət dövriyyəsi isə 10 dəfədən çox artmışdır. Dövlət başçısı vurğuladı ki, Azərbaycanın birbaşa xarici borcu hazırda ümumi daxili məhsulun təxminən 10 faizini təşkil edir. Valyuta ehtiyatları birbaşa xarici dövlət borcumuzu 10 dəfə üstələyir, yoxsulluq səviyyəsi təxminən 50 faizdən 5,5 faizə düşüb. Azərbaycanda əlverişli investisiya mühiti yaradılıb. Son 20 ildə Azərbaycan iqtisadiyyatına 310 milyard ABŞ dollarından çox sərmayə qoyulub ki, bunun da 200 milyard ABŞ dollarına yaxını qeyri-enerji sektorunun payına düşür.

Ölkə başçısı bildirdi ki, son illərdə Azərbaycan özünün nəqliyyat infrastrukturuna milyardlarla ABŞ dolları həcmində sərmayə qoyub. Azərbaycan Avrasiyanın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzərində yerləşən nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib.

Prezident İlham Əliyev qeyd etdi ki, müstəqilliyimizin ilk illərində ölkəmizin beynəlxalq səviyyədə tanınan ərazilərinin təxminən 20 faizi Ermənistan tərəfindən işğal edilmişdi. Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı öz dədə-baba yurdlarından qovulmuşdur. Otuz ilə yaxın aparılan danışıqlar heç bir nəticə verməmişdir. Çünki Ermənistanın məqsədi işğalı qoruyub saxlamaq idi. 2019-cu ildə Ermənistanın baş nazirinin o vaxt işğal altında olan Xankəndi şəhərində ”Qarabağ Ermənistandır və nöqtə” açıqlaması danışıqlar prosesini tamamilə məhv etdi.

Bir sözlə, bütün bu deyilənlər bir daha onu təsdiqləyir ki, Prezident İlham Əliyevin şəxsi nüfuzu, yürütdüyü siyasət, qazanılan uğurlar bu gün Azərbaycanın dünya birliyində yerini möhkəmləndirir, xalqımızı və dövlətimizi perspektivdə hələ möhtəşəm sosial, iqtisadi uğurlar, diplomatik qələbələr gözləyir.

**RƏFİQƏ KAMALQIZI**

# Azərbaycan-Rumıniya münasibətlərində mövcud ənənə: dostluq və əməkdaşlıq



*İlham Əliyev: "Bu gün Azərbaycan ilə Rumıniya arasında əlaqələrin və qarşılıqlı faydalı əməkdaşlığın daha da dərinləşdirilməsi üçün yaxşı imkanlar mövcuddur"*

Azərbaycan Prezidenti Cənab İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində ölkəmizlə dünya dövlətləri arasında münasibətlər daha da sıxlaşır, iqtisadi, mədəni, siyasi münasibətlər müstəvisində uğurlar əldə olunur. Dünyanın bir çox ölkələri ilə yanaşı, Azərbaycanla Rumıniya arasında əlaqələr də yüksələn bir xətlə inkişafdadır. "Bu gün Azərbaycan ilə Rumıniya arasında əlaqələrin və qarşılıqlı faydalı əməkdaşlığın daha da dərinləşdirilməsi üçün yaxşı imkanlar mövcuddur". Bu fikirlər Azərbaycan Prezidenti İlham Əliyevin Rumıniya Prezidenti Klaus Verner İohannisə bu ölkənin milli bayramı münasibətilə ünvanladığı təbrik məktubunda yer alıb.Məktubda Azərbaycan-Rumıniya münasibətlərinin xoş ənənələrə malik olduğunu diqqətə çatdıran dövlətimizin başçısı qeyd edib ki, bu ənənələri özündə bariz şəkildə əks etdirən dövlətlərarası münasibətlərimizin hazırkı inkişaf səviyyəsi və gündən-günə genişlənməsi məmnunluq doğurur. "İnanıram ki, son dövrdə həyata keçirilən ali və yüksək səviyyəli qarşılıqlı səfərlər, müntəzəm təmaslar strateji tərəfdaşlığımızın möhkəmlənməsinə, siyasi, iqtisadi, enerji, nəqliyyat, humanitar və digər sahələrdə birgə fəaliyyətimizin geniş potensialından daha səmərəli istifadə olunmasına mühüm töhfə verəcəkdir", - deyən Azərbaycan Prezidenti bu əlamətdar gün münasibətilə rumıniyalı həmkarına cansağlığı, xoşbəxtlik, işlərində müvəffəqiyyətlər, dost Rumıniya xalqına isə daim əmin-amanlıq və rifah arzulayıb.

Təbii ki, iki ölkə arasında münasibətlərin inkişafına dövlət başçılarının görüşləri təkan verib. Münasibətlərin tarixi ötən əsrləri əhatə edir və bu münasibətlərin əsası mənbələrdə qeyd olunduğu kimi, hələ XV əsrdə qoyulub. Azərbaycan müstəqillik əldə etdikdən sonra dövlətlərarası ikitərəfli münasibətlərin coğrafiyası genişlənmiş və Rumıniya Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 11-də tanımışdır. 1995-ci ilin iyulunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Rumıniyaya rəsmi səfər etmiş və Rumıniya Prezidenti İon İliyesku ilə görüşən Ulu Öndər Heydər Əliyev Rumıniya prezidentinin onu bu ölkəyə səfərə dəvət etməsini iki ölkə arasında dostluq münasibətlərinin daha da inkişaf etdirilməsi üçün çox mühüm addım kimi qiymətləndirmişdir. Prezident Heydər Əliyevin Rumıniyaya səfəri zamanı Azərbaycan və Rumıniya arasında dostluq və əməkdaşlıq münasibətləri haqqında Bəyannamə, eləcə də elm, təhsil, mədəniyyət və idman, həmçinin iqtisadi və elmi-texniki əməkdaşlıq haqqında sazişlər imzalanmışdır. 1996-cı ilin martında Rumıniya Prezidenti İon İliyesku Azərbaycana rəsmi səfərə gəlmiş və səfər çərçivəsində iki ölkə arasında dostluq və əməkdaşlıq haqqında müqavilə, hava əlaqələri, ticarət gəmiçiliyi, beynəlxalq avtomobil daşımaları haqqında və digər sahələrdə əməkdaşlıq haqqında sazişlər imzalanıb. Qarşılıqlı əlaqələrin təzahürü olaraq 1997-ci ildə Rumıniyanın Azərbaycanda səfirliyi, 2001-ci ildə isə Şərqi Avropa dövlətlərində ilk dəfə olaraq Azərbaycanın Rumıniyada səfirliyi açılmışdır. 1998-ci il iyunun 29-da Rumıniya Prezidenti Emil Konstantinesku Heydər Əliyevin dəvətilə Azərbaycana rəsmi səfəri zamanı "Azərbaycan Respublikası ilə Rumıniya Respublikası arasında dostluq münasibətlərinin və tərəfdaşlığın inkişafı haqqında" bəyannamə imzalanmışdır.

## DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏRDƏ KÖRPÜ

Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev bir çox dünya ölkələri ilə yanaşı, Rumıniya ilə də əlaqələri uğurla inkişaf etdirir. 2004-cü ildə İlham Əliyevin Rumıniyaya rəsmi səfəri və səfər çərçivəsində "Azərbaycan Respublikası Prezidentinin və Rumıniya Respublikası Prezidentinin Birgə Bəyannaməsi" də daxil olmaqla müxtəlif sahələri əhatə edən 12 sənədin imzalanması münasibətlərin genişlənməsinə geniş imkanlar açdı. Beləliklə, qarşılıqlı səfər və görüşlər ölkələr arasında siyasi - iqtisadi və digər sahələrdə əlaqələrin uğurla inkişaf etməsinə səbəb oldu. Prezident İlham Əliyev çıxışlarının birində ikitərəfli dostluq münasibətlərinin sürətlə inkişaf etdiyini, siyasi, iqtisadi, mədəni, enerji sahəsində ölkələrimizin yaxın tərəfdaş olduğunu və regional əməkdaşlığın uğurla həyata keçirildiyini bildirib. Azərbaycan Prezidenti İlham Əliyevin Rumıniyaya məlum rəsmi səfəri dövlətlərarası münasibətlərin inkişafına söykənir. Ötən ilin dekabrın 17-də Buxarestdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rumıniya Prezidenti Klaus Yohannis ilə görüşü də iki ölkə arasında strateji tərəfdaşlıq əlaqələrinin mövcudluğu qeyd edilib, yüksəksəviyyəli qarşılıqlı səfərlərin və görüşlərin əhəmiyyəti diqqətə çəkilmişdir. Hər iki ölkənin müvafiq qurumları arasında sıx əməkdaşlığın həyata keçirilməsinə önəm verilmişdir.

## AZƏRBAYCAN REGİONDA ƏSAS TƏRƏFDAŞ ÖLKƏDİR

Bildiyimiz kimi, dövlət Neft Şirkəti və Romqaz 2023-cü il yanvarın 1-dən Azərbaycandan Rumıniyaya qazın təchizatı barədə müqavilə imzalayıblar. Bu gün regionda böyük gücə malik olan Azərbaycan Avropanın enerji təhlükəsizliyində də xüsusi rol oynayır.Bunu qiymətləndirən digər Avropa ölkələri kimi Rumıniya da Azərbaycanı regionda əsas tərəfdaş ölkə hesab edir. Regional və beynəlxalq təşkilatlarda Azərbaycan və Rumıniya yaxından əməkdaşlıq edirlər.Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyevin Rumıniyaya səfəri çərçivəsində Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması ölkələr arasında bir sıra mühüm sahələrdə uzunmüddətli əməkdaşlıq üçün təməl yaratmış oldu. Bu Saziş Avropa İttifaqını Cənubi Qafqazdakı tərəfdaşlarına daha da yaxınlaşdırmaqla yanaşı, regionlara təmiz enerjiyə keçidə nail olmağa təkandır. Rumıniya, Gürcüstan və Azərbaycan arasında Qara dənizdən çəkiləcək elektrik xətti mühüm əhəmiyyətli bir layihədir. Sazişin imzalanması yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində Avropanın enerji təhlükəsizliyinə veriləcək ümumi töhfədir.

## QAZ TƏCHİZATININ COĞRAFİYASI GENİŞLƏNİR

Müasir günümüzdə Azərbaycan özünün qaz təchizatının coğrafiyasını Avropa bazarına qədər genişləndirir. "Bu, hamı üçün uduşlu vəziyyətdir, çünki Avropaya öz enerji təhlükəsizliyinin qorunması üçün qaz lazımdır, Azərbaycanın isə özünün nəhəng enerji resursları üçün etibarlı bazara ehtiyacı var" – deyən dövlət başçısı onu da qeyd edib ki, bu gün biz Avropaya digər enerji körpüsünü salmağa başlayırıq:"Ölkəmiz Avropanın mühüm elektrik enerjisi, əsasən, yaşıl enerji təchizatçısına çevrilməyi planlaşdırır.

Ölkəmizin strateji investorlarının biri ilə biz 2027-ci ilə qədər 3 qiqavat külək və 1 qiqavat günəş enerjisini istehsal etməyi planlaşdırırıq. Onların 80 faizi ixrac olunacaq. Biz 2037-ci ilə qədər ən azı 6 qiqavatlıq əlavə gücləri yaratmağı planlaşdırırıq". Məqsədlərimizə nail olmaq üçün biz səmərəli surətdə çalışmalıyıq – deyən Prezident bildirib ki, Azərbaycan, Gürcüstan, Macarıstan, Rumıniya Avropa İttifaqı ilə sıx əməkdaşlıq və əlaqələndirmə şəraitində bir komanda kimi işləməlidirlər. Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş ölkələrin yaşıl enerji sahəsində sıx əməkdaşlığın təzahürüdür. Əlbəttə ki, Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında imzalanan Saziş ölkəmizin beynəlxalq güc kimi önəmini daha da artırır. Sazişin imzalanması ilə Azərbaycan qeyd olunan dövlətlərin enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynayacaqdır. Sözü gedən Sənədlə Rumıniya, Gürcüstan, Azərbaycan və Macarıstanın iştirakı ilə Qara dənizdə sualtı enerji kabelinin yaradılması layihəsi bütün regionun enerji təhlükəsizliyini gücləndirəcək.

***Zümrüd BAYRAMOVA***

# "Ərazilərin bərpası işlərin daha da sürətlənəcəyinə inam yaradır"






***İşğaldan azad olunmuş ərazilərimizdə görülən işlər, həyata keçirilən çox mühüm layihələr qürurvericidir. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib. Komitə sədri vurğulayıb ki, artıq ərazilərin bərpası üçün yeddi milyard dollardan artıq vəsaitin sərf olunması və burada həyata keçirilən infrastruktur layihələr gələcəkdə bu işlərin daha da sürətlənəcəyinə inam, ümid yaradır və sevindirici haldır ki, artıq ötən ilin iyul ayından həmin ərazilərə insanların köçürülməsinə başlanılmışdır.***

"İndi Laçın və Füzuli şəhərlərində, eləcə də Zəngilanın bir sıra yerlərində məcburi köçkünlər öz ata-baba yurdlarına qayıdırlar. Gələn ilin büdcəsində ərazilərin bərpası, abadlaşdırılması, təmir-tikinti işlərinin görülməsi üçün dörd milyard əlavə vəsaitin ayrılması insanların daha tez məskunlaşmasına imkan yaradacaq və elə bilirəm ki, bu vəsait həmin dövrdə müəyyən qədər artırılacaq və həmin ərazilərə xarici sərmayədarlar da cəlb olunacaqlar. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev işğaldan azad olunmuş ərazilərdə işlərin sürətləndirilməsinə və yeni tədbirlərin həyata keçirilməsinə çox önəm verir və vaxtaşırı olaraq həmin regionlara səfərlər edir. Son üç ildə 105 təməlqoyma, 63 açılış mərasimində ölkəmizin rəhbərinin iştirak etməsi bilavasitə göstərir ki, ölkə rəhbəri öz vədinə sadiqdir və həmin ərazilərin cənnətə çevriləcəyi barədə verdiyi sözləri əməli işlərlə həyata keçirməkdədir. Əlbəttə ki, bu proses nəinki bizi, Azərbaycana dost olan bütün dövlətləri sevindirir. Bu prosesdə qardaş Türkiyənin iş adamları yaxından iştirak edir, qardaş Özbəkistan və Qazaxıstan respublikaları bu ərazilərdə məktəb tikir, mədəniyyət mərkəzləri istifadəyə verirlər. Digər qonşu ölkələrin, dostların gələcəkdə bu prosesə sözsüz ki, qoşulmaq arzuları olacaq və bu da Azərbaycana olan etimadın, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasətinə verilən qiymətdən qaynaqlanır.

Əlbəttə ki, ərazilərin minalardan təmizlənməsi, bu yerlərdə yeni torpaqların əkin dövriyyəsinə qatılması kənd təsərrüfatının inkişafına da imkanlar açacaq. Artıq həmin ərazilərdə 72 min hektardan artıq sahədə taxıl əkilib. Digər kənd təsərrüfatı məhsulları yetişdirilməkdədir. Yayda mal-qaranın Kəlbəcər yaylaqlarına qaldırılması, arı ailələrinin həmin ərazilərə köçürülməsi ərazinin kənd təsərrüfatı potensialından xəbər verir və sözsüz ki, gələcəkdə aqrar sektorun inkişafı üçün bu sahələrdə əlavə tədbirlər həyata keçiriləcək. Bu gün hər bir Azərbaycan vətəndaşı tarixi qələbələrimizlə bərabər regionda görülən işlərin sanbalını, onun gələcəyimiz üçün, insanların rahatlığı və iqtisadi inkişaf üçün vacib olduğunu yüksək qiymətləndirir. Sözsüz ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bilavasitə rəhbərliyi ilə bu ərazilərdə görülən işlər müasir tələblər səviyyəsindədir və şəhərlərin yenidən qurulması, ağıllı kənd layihələrinin həyata keçirilməsi bu regionların gələcək yüksək potensialından xəbər verir."- deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# Növbəti dərs

## *Yaxud, ATƏT tribunasından Azərbaycana qarşı püskürdülən erməni yalanları*

***Qərb rəsmi Bakını "yola gətirməyə", özünə tabe etdirməyə, bütün planlarını regionun əsas söz sahibi olan Azərbaycanla həyata keçirməyə çalışır. Əvvəl "qara piar"dan başlayır, guya "Dağlıq Qarabağ"dakı ermənilərin zorla köçürülməsində suçlu olduğumuzu iddia edir, daha sonra isə bir az da irəli gedərək Azərbaycanın Ermənistanın "suveren əraziləri"nə təcavüz edəcəyi barədə cəfəngiyyatlar söyləməyə çalışır. Eyni mətni müxtəlif tribunalardan səsləndirən qərbli ssenaristlər bu təbliğatın sonu kimi Azərbaycanın onların səddində duracağını ehtimal edirlər. Təbii ki, bu, yalnız ehtimallardır, həqiqət payı demək olar ki, yoxdur. Bu davada Ermənistan da təsadüfən seçilməyib. Təlimə daha tez alışan, ələbaxan, sözəbaxan, xəyanəti ovcunun içində olan bir ölkə ilə anlaşmaq Qərb üçün o qədər də çətinlik yaratmayıb indiyədək.***






Qərb ciddi-cəhdlə Ermənistanın yalanlarını malalamaqla bu ölkədən məzlum, yazıq, günahsız obrazı yaratmağa çalışır. Yüksək tribunalardan İrəvana dəstək aksiyalarının arxasındakı niyyətlər də bunu göstərir. Azərbaycan 30 ildən artıqdır ki, Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə uzaqdan-yaxından maraqlanan istənilən ölkəyə, beynəlxalq təşkilata, ayrı-ayrı siyasətçilərə iki qonşu dövlət arasında baş verənlərin əsl səbəblərini və keçmişini anladır. 1998-ci ildən başlayaraq dünyanın 3 super dövlətinin yaratdığı həmsədrlik institutunun fəaliyyətinə xeyir-dua verəndə də rəsmi Bakı araşdırmaların, müzakirələrin, danışıqların və nəhayət qərarların obyektiv olacağını düşünürdü. Həmsədrlər dəyişsə də, "turist" səfərlərinin sayı artsa da, konkret heç bir nəticə, azacıq dəyişiklik baş verməsə də yenə ümidimiz münaqişənin sülh yolu ilə bitəcəyinə idi. Amma, itirdiyimiz vaxta heyf, Qərb dünyasının yalançı, ikiüzlü olduğunu çox gec anladıq

Bu gün yeni-yeni görüşlər keçirilir, yaxud tərtiblənir. ABŞ və onun avropalı dostları prosesin içində olduqlarını sübut etmək üçün min bir hiylə işlədirlər, özlərini əvvəlkitək arbitr rolunda görürlər. Əcəba, 30 il adi bir münaqişəyə öz töhfəsini verə bilməyən, ən azından beynəlxalq qanunların tətbiqini məqsədəuyğun olduğunu deyən Qərbi ortada görmürük. Ermənistan 30 il torpaqlarımızı işğal altında saxladı, Qərb faktı görməzdən gəldi, 1 milyona yaxın vətəndaşımız öz evindən didərgin salındı, yenə susdular, bütün şəhər, kənd və qəsəbələrimizi yerlə yeksan etdilər, dinmədilər, maddi-mədəni abidələrimiz üzərində vandallıq etdilər, beynəlxalq təşkilatlardan birinin də heç olmasa hesabat xatirinə monitoriq aparmaq "yadına" düşmədi. Bu gün isə sıraya düzülüblər. Qorxaq it pəyədən boylanan kimi, Ermənistan-Azərbaycan sərhəssi boyunca sıralanıblar. İşğalçı Ermənistana milyarlarla vəsaiti tərəddüd etmədən peşkəş verirlər, hərbi yardım paketlərinin sayı-hesabı yoxdur, erməni rəsmiləri o tribunadan bu tribunaya, o ocaqbaşından bu tonqalbaşına çəkir, kürəklərinə toxunaraq "bravo" hayqırırlar. Amma əsl niyyətlərini eyforiyada olan Ermənistandan başqa hər kəs bilir.

RAKURS

Şimali Makedoniyanın başkəndi Skopyada ATƏT Xarici İşlər Nazirləri Şurasının 30-cu toplantısı keçirilib. Ermənistanın XİN rəhbəri Ararat Mirzoyan çıxış edib və Və bu ikiayaqlının Avropa İttifaqının, yaxud NATO-nun genişlənmə ehtimalı barədə fikir söyləyəcəyini düşünürsünüzsə, çox yanılırsınız. Mirzoyan ağzını Azərbaycana qarşı qərəz yağdırmaqla açıb, çıxışını bütünlüklə Azərbaycana qarşı təbliğata həsr edib. O, çıxışında Ermənistanın və "Qarabağ klanı"nın zorla Qarabağdan ermənilərin çıxarılmasını yenə Azərbaycanın üzərinə atıb. Öz adını bizə qoyaraq nifrət və ksenofobiyadan, "ata-baba yurdu", "azad və ləyaqətli", "ontoloji təhlükə" və s. barədə yalanlar uyduraraq Ermənistanın işğal əməllərini malalamağa çalışıb. Amma bir məsələni də etiraf edib ki, Cənubi Qafqazda "Dağlıq Qarabağ münaqişəsi" bu il son mərhələsinə çatıb.

Mirzoyan utanmadan "Azərbaycan beynəlxalq ictimaiyyətin səssiz razılığı ilə "Dağlıq Qarabağ" ərazisini erməni əhalisi olmadan əldə etmək kimi çoxdankı məqsədinə nail olub"söyləyib. Halbuki, Ermənistan azərbaycanlıların deportasiyasını hələ sovet dövründə 3 dəfə həyata keçirib. Sonuncu, 1988-ci ildə baş verənlərdən sonra isə Ermənistanda bir nəfər də olsun azərbaycanlı-türk qalmayıb. Min illərlə indiki ermənistan adlanan dövlətin ərazilərində azərbaycanlılar yaşayıb, bu yerlərin yerli xalqı kimi tarix yazıb-yaradıblar.

Mirzoyan "humanitar fəlakətə baxmayaraq", Ermənistanın Cənubi Qafqazda yeni sülh dövrünün açılmasına "sadiq" olduğunu da vurğulayıb və yalanlarını yenə sıralayıb: "Bu fürsəti reallığa çevirmək üçün bizə hərtərəfli işlənmiş və məlum prinsiplərə əsaslanan səylərimizə Azərbaycanın qarşılıqlı səmimi iştirakı və beynəlxalq aktorların güclü dəstəyi lazımdır. Azərbaycan tərəfindən geniş müzakirə olunan və qəbul edilən və ya ən azı rədd edilməyən həmin prinsiplərə aşağıdakılar daxildir (halbuki Azərbaycan tərəfinin 5 baza prinsipləri əsasında tərtib etdiyi sənəd bundan daha sanballı və beynəlxalq qanun, norma və prinsiplərə söykənir): 1) 1991-ci ilə əsaslanan ərazi bütövlüyünün qarşılıqlı tanınması – Almatı Bəyannaməsi əsasında və qeyri-müəyyənlik olmadan, 2) SSRİ Baş Qərargahının 1974-78-ci il xəritələrinə əsaslanan Ermənistanla Azərbaycan arasında ən son və qanuni dövlət sərhədinin demarkasiyası, 3) ölkələrin suverenliyinə və yurisdiksiyasına tam hörmət, habelə bərabərlik və qarşılıqlılıq prinsipləri əsasında bütün nəqliyyat və iqtisadi kommunikasiyaların blokdan çıxarılması.

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Nazirlər Şurasının 30-cu iclasında çıxışı isə həm Ermənistana, həm də onun arxasında durmaqdan yorulmayan Qərb dairələrinə əsl şapalaq oldu. Həmin çıxışı olduğu kimi təqdim etməkdə məqsədimiz onun məzmununa, ruhuna toxunmamaqdır.

Xarici işlər naziri qeyd edib ki, ATƏT Nazirlər Şurasının bugünkü iclası iştirakçı dövlətlər tərəfindən ikili standartlara yol vermədən dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına hörmət edilməsinə qeyd-şərtsiz riayət olunmasının təmini yüksək əhəmiyyət kəsb edir. Bu il Azərbaycanın öz ərazilərində suverenliyini tam şəkildə bərpa etməsi ilə yadda qaldı. 24 saat davam edən lokal anti-terror tədbirləri nəticəsində Ermənistan və onun qeyri-qanuni qondarma strukturu tərksilah edilərək buraxılıb və Azərbaycan ərazilərindən tamamilə çıxarılıb.

Ermənistanın Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün tanınması ilə bağlı şifahi bəyanatlarına baxmayaraq, bu ölkənin öhdəliklərini açıq-aşkar pozaraq, Azərbaycan ərazilərində ağır və hücum tipli silahlarla təchiz edilmiş on minlik silahlı şəxsi heyəti saxlamaqda davam etməklə, əslində revanş üçün vaxt udmağa çalışdığı aydın oldu. Heç bir suveren dövlət, o cümlədən Azərbaycan da öz ərazilərində bu cür qanunsuz hərbi mövcudluğa yol verə bilməzdi. Bu vəziyyətə son qoyulması isə Ermənistanın açıq etinasızlığı, habelə prosesin bir parçası olan vasitəçilərin adekvat addımlar atmaması səbəbindən sülh yolu ilə baş tutmadı. Bağlı qapılar arxasında Azərbaycanın narahatlıqlarının qəbul edilməsinə baxmayaraq, ictimai bəyanatlarda selektiv yanaşmaya üstünlük verildi. Bu da öz növbəsində, Ermənistanın yeni "təmas xətti" qurmaq, ərazilərimizdə yeni səngərlər qazmaq və minalar basdırmaq, qarayaxma kampaniyası vasitəsilə Azərbaycanı şantaj etməklə danışıqların imitasiyası strategiyasını davam etdirə biləcəyi illüziyasına qapılmasına gətirib çıxardı.

ATƏT illərdir davam edən Ermənistanın genişmiqyaslı qeyri-qanuni fəaliyyətinin qarşısının alınmasında effektiv ola bilməyib. Əksinə, legitim çağırışlarımıza məhəl qoymamaq və işğala əsaslanan status-kvoya göz yummaq təcrübəsi Ermənistanı daha da cəsarətləndirdi. ATƏT-in münaqişənin həllinin bir parçası olmaq şansı var idi. Əfsuslar olsun ki, bu şans Ermənistan tərəfindən törədilən maneələr və bir sıra iştirakçı dövlətlərin ona havadarlıq etməsi nəticəsində əldən verildi. Təşkilatda, Azərbaycanın post-münaqişə dövründə reabilitasiya məsələləri üzrə mövcud öhdəliklərinə müvafiq dəstək layihələri ilə bağlı müraciətinin cavablandırılmasına maneələr törədildiyini nəzərə aldıqda, bu təcrübə bugünədək davam edir".

"Humanitar məsələlər" ilə bağlı ifadə edilən narahatlıqlar da əsassızdır: "Beynəlxalq təşkilatlar, o cümlədən BMT və onun ixtisaslaşmış qurumları və Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən yerində aparılan müşahidələr də narahatlıqların əsassızlığını tam təsdiqləyib.

Ümumilikdə götürdükdə, Azərbaycan antiterror tədbirlərində nümunəvi davranış nümayiş etdirib. Heç bir erməni sakin bölgəni tərk etməyə məcbur edilməyib. Əksinə, Azərbaycan yerli erməni sakinlərə bərabərhüquqlu Azərbaycan vətəndaşları kimi qalmaq və reinteqrasiya istiqamətində ardıcıl çağırışlar edib. Azərbaycan hökuməti müstəsna olaraq Azərbaycanın daxili məsələsi olan ölkə vətəndaşlığı əsasında yerli sakinlərin gələcək reinteqrasiyası üçün hərtərəfli plan elan etmək də daxil olmaqla, onların humanitar və sosial-iqtisadi ehtiyaclarının ödənməsi üçün ardıcıl səylər göstərib".

Nazir vurğulayıb ki, Azərbaycanın bu yanaşması Ermənistanın ərazilərindən zorla qovduğu yüz minlərlə azərbaycanlının pozulmuş hüquqlarının bərpasından davamlı şəkildə imtina etməsi ilə tamamilə ziddiyyət təşkil edir: "Dağıntılara və sağalmamış yaralara baxmayaraq, bir-birinin suverenliyi və ərazi bütövlüyünün qarşılıqlı tanınması və onlara hörmət edilməsi əsasında Ermənistanla dövlətlərarası münasibətlərin normallaşdırılması prosesinin təşəbbüskarı məhz Azərbaycan olub. Təəssüf ki, Azərbaycanın birmənalı olaraq sülh prosesinə sadiqliyinə baxmayaraq, proses yersiz ləngimələrdən əziyyət çəkir. Sülh sazişinin layihəsinə nəhayət ki öz şərhlərini təqdim etmək üçün Ermənistana iki ay yarımdan çox vaxt lazım oldu. Eyni səbəbdən, bir sıra üçüncü tərəflərin qərəzli və birtərəfli hərəkətləri də prosesə ciddi şəkildə təsir edir.

Bütün çətinliklərə baxmayaraq, Azərbaycan sülh sazişinin yekunlaşdırılması üçün birbaşa danışıqların ən qısa zamanda bərpasına sadiqdir. Biz açıq şəkildə Ermənistana dövlət sərhədində, yaxud qərəzsiz və neytral üçüncü bir ölkədə görüşməyi təklif etmişik. Biz, Azərbaycan və Ermənistan üçün mehriban qonşuluq münasibətləri qurmaq və iki suveren dövlət kimi sülh şəraitində birgə yaşamaq üçün tarixi imkanın mövcudluğuna qəti şəkildə inanırıq. Bu imkandan istifadə etməyin vaxtıdır. Bunun üçün Ermənistan sülhə gedən yolun qonşuları ilə ikitərəfli dialoqdan və normal münasibətlərdən keçdiyini başa düşməlidir. Digər aktorlar tərəfindən yalnız qarşıdurmaya və sülhün ləngidilməsinə xidmət edən geosiyasi oyunların davam etdirilməsi qeyri-məhsuldardır.

Beləliklə, Azərbaycanın Təşkilatla konstruktiv əməkdaşlığa hazır olduğunu bir daha vurğuladı. Post-münaqişə dövründə regionumuzda yaranmış reallıqlar, işğaldan azad olunmuş ərazilərimizin bərpası və məcburi köçkünlərin mərhələli şəkildə həmin ərazilərə qayıdışı, bərpa-qayıdış fəaliyyətlərinə ən böyük əngəl kimi mina təhdidi, eləcə də sülh prosesinin irəliyə aparılması istiqamətində ölkəmizin səyləri diqqətə çatdırılıb. İndi top Ermənistan və onun maşasını tutanlardadır.

***V.VƏLİYEV***

# Ukraynalı ekspertdən şok proqnozlar

## *Aleksandr Kovalenko: "Bu əsassız bəyanatların arxasında gizli ssenarilərin elementləri görünür"*



***Azərbaycanla Ermənistan arasında bağlanacaq sülh müqaviləsi bu il də baş tutmayacaq. Bunu son siyasi hadisələr də sübut edir. Ermənistanın siyasi manipulyasiyası, Qərb dövlətlərinin açıq-aşkar onun maraqlarını müdafiə etməsi sülh müqaviləsini əngəlləyir. Ermənistan parlamentinin sədri Alan Simonyan isə bu ilin sonuna qədər müqavilənin bağlanma ehtimalının olduğunu bildirib. Siyasi ekspertlər hesab edirlər ki, Simonyanın bu bəyanatı siyasi dəllallıqdır və Ermənistan rəsmisi Qərbdəki havadarlarının ssenarisinə uyğun danışır. Bu sözləri ukraynalı hərbi ekspert Aleksandr Kovalenko mövzu ilə bağlı Azərbaycan mediasına açıqlamasında deyib.***

Ermənistan parlamentinin sədri Alen Simonyanın 15 gün ərzində Azərbaycanla sülh müqaviləsi imzalanmasının mümkünlüyü barədə bəyanatına münasibətini açıqlayan ukraynalı ekspert qeyd edib ki, sülh müqaviləsinin imzalanmasının mümkünlüyü ilə yanaşı, Fransa və ABŞ kimi dövlətlərdən Azərbaycanın guya Ermənistan ərazisini işğal etmək planlarını həyata keçirməsi barədə bəyanatlar da səslənir: "Bu əsassız bəyanatların arxasında gizli ssenarilərin elementləri görünür. Təkcə təbliğat deyil, bu siyasət Ermənistanla Azərbaycan sərhədində təhlükəsizlik buferi yaratmağa hesablanıb. Qərb öz hərbçilərini sülhməramlı missiya adı altında sərhədə gətirmək niyyətindədir. Ola bilsin ki, Ermənistanın Qərb sponsorları ilə konkret müqaviləsi də var. Ona görə də İrəvan bütün hiylələrə əl atır, o cümlədən, Simonyanın dediyi kimi, guya sülh müqaviləsi imzalamaq istəyir, amma reallıqda yenə də proses gecikəcək".

### "Buna qədər ermənilər bir neçə oxşar bəyanatlar verib, lakin..."

Politoloq Ermənistan rəsmilərinin bəyanatlarını ciddiyə almadığını diqqətə gətirib: "Ona görə də mən İrəvanın bəyanatlarını, xüsusən də sülhlə bağlı dediklərini ciddi qəbul etmirəm. Buna qədər ermənilər bir neçə oxşar bəyanatlar verib, lakin bir müddətdən sonra onların iç üzləri özünü büruzə verib. Odur ki, Azərbaycan son dərəcə ehtiyatlı olmalıdır".

ABŞ-ın Azərbaycanı sülh prosesini ləngitməkdə ittiham etməsinin arxasında hansı maraqların dayandığını ifadə edən Kovalenko bildirib ki, əvvəlcə ABŞ dövlət katibinin köməkçisi Brayen Bakıya qarşı qərəzli bəyanatlar səsləndirdi. Daha sonra Blinken Prezident Əliyevə zəng vurur və Brayenin dekabrda Azərbaycana gəlməsi üçün icazə istəyir. Beləliklə, dövlət katibinin köməkçisinin Bakıya hansı üzlə gələcəyinə də münasibəti bildirən politoloq bildirib ki, Brayen Vaşinqtonun Azərbaycanla bağlı mövqeyini ifadə edib: "Yəni, bu yolla Vaşinqton Bakının əleyhinə danışan şəxsin Azərbaycana gəlişini təmin etməyə çalışır. Mən bunu həm fürsət, həm də təhlükə kimi görürəm. Əgər Bakının Qərbin informasiya məkanında bu cür təzyiqlərə qarşı tədbirləri varsa, bu, yaxşıdır. Çünki Qərbdə bir qayda olaraq güclü erməni lobbisi var".

Ermənistanın Rusiya ilə münasibətlərərinə bunun necə inkişaf edəcəyi, habelə rəsmi İrəvanın Moskvanı KTMT-ni, Aİİ-ni tərk edəcəyinə, eləcə Ermənistanın Qərbdən istədiyi dəstəyi almaqdır mümkünlüyünə aydınlıq gətirən ekspert bildirib: "Düşünmürəm ki, Ermənistan KTMT və Aİİ-dən çıxsın. İndi 44 günlük müharibə, daha sonra Qarabağda 23 saatlıq əməliyyat zamanı praktiki olaraq itirilən hərbi potensialını hansısa yolla bərpa etmək əzmindədir. Onun itkilərini kompensasiya etmək üçün nəsə lazımdır. Rusiya Ermənistanın ümidlərini doğrultmadı və Qarabağ məsələsində ona kömək edə bilmədi. Ona görə də İrəvan indi Hindistan və Fransanın köməyi ilə bu problemi həll etməyi qarşısına məqsəd qoyub. Amma hesab edirəm ki, İrəvan heç bir müttəfiq birlik və bloklardan, o cümlədən KTMT-dən çıxmağa tələsməyəcək. Çünki İrəvan yaqin ki, belə bir addımın fəsadlarla dolu olduğunu anlayır. Ona görə də Ermənistan üzv ölkələrin müəyyən öhdəliklərinə görə müvəqqəti də olsa, bir növ hərbi dəstəyə malikdir. Bəli, KTMT ölü doğulmuş bir təşkilatdır, amma onun bəzi təsir alətləri var.

Amma şübhə yoxdur ki, Ermənistan müdafiə qabiliyyətini bərpa edən kimi KTMT-dən mümkün qədər tez çıxmağa çalışacaq. Məncə, bu proses zamanı Ermənistan həm də yeni və köhnə tərəfdaşlarından müəyyən təminatlar – təhlükəsizlik zəmanəti və gözlənilməz hadisələrlə bağlı dəstək istəyəcək".

**Afət Tahirqızı**

# "Laçının azad edilməsi tarixi qələbənin davamı idi"

***"1 dekabr Laçın rayonunun işğaldan azad olunduğu gündür. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 1 dekabr tarixində xalqa müraciətində Laçın rayonunun işğaldan azad olunmasının tarixi hadisə olduğunu bildirmişdir". Bu fikirləri "Səs" qəzetinə açıqlamsında Milli Məclisin Komitə sədri, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü Eldar İbrahimov deyib.***





Onun sözlərinə görə, tarixi müraciətində Ali Baş Komandan İlham Əliyev bildirdi ki, döyüş meydanında əldə edilmiş parlaq qələbənin nəticəsi olaraq üç rayonumuz - Ağdam, Kəlbəcər və Laçın rayonları bizə qaytarıldı.Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq.

E.İbarahimov onu da vurğulayıb ki, işğaldan azad olunmuş torpaqlarımızda təmir-bərpa, quruculuq işlərinə start verilib və mühüm infrastruktur layihələri həyata keçirilir: "Bu gün böyük fəxrlə və qürurla azadlığına qovuşan Qarabağımızı, Şərqi Zəngəzuru yenidən qururuq. Öz gücümüzə, öz imkanlarımız hesabına qurub, yaradırıq. 2023-cü ilin iyun ayında dövlət büdcəsinə edilmiş dəyişikliklərdən sonra xərclər 36 milyard manata çatdırılmasıdır ki, bu da müstəqil Azərbaycanın tarixində rekord göstəricidir. Xərclərə əlavə edilən 3 milyard manatın təqribən 1,8 milyardlıq hissəsinin Qarabağ və Şərqi Zəngəzurda aparılan quruculuq işlərinə ayrılması bir daha təsdiq edir ki, işğaldan azad edilmiş ərazilərin bərpası Azərbaycanın milli prioritetidir".

YAP İdarə Heyətinin üzvü onu da qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi və bilavasitə nəzarəti ilə işğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış" üçün bütün zəruri tədbirlər görülür: "Əhalinin infrastruktur təminatının yaxşılaşdırılması və layiqli həyat şəraitinin yaradılması üçün su, qaz, elektrik, istilik təchizatı və kanalizasiya xidmətlərinin qurulması istiqamətində sistemli tədbirlər həyata keçirilir. Prezidentimiz ilkin mərhələdə 100 yaşayış məntəqəsinin, o cümlədən 9 şəhər və 8 qəsəbənin bərpasının nəzərdə tutulduğunu qeyd edib: "Keçmiş məcburi köçkünlər "Böyük Qayıdış" Proqramı çərçivəsində öz dədə-baba yurdlarına qayıdırlar. 2026-cı ilin sonuna qədər 140 min keçmiş məcburi köçkün öz doğma evlərinə qayıdacaq" . Bir sözlə tarixi torpaqlarımız dirçəlir, insanlar doğma yurdlarına qayıdaraq normal həyatlarını bərpa edirlər. Biz Müzəffər Ali Baş Komandanın dediyi kimi Qarabağı və Şərqi Zəgəzuru cənnətə çevirəcəyik. Bununla da bütün dünyaya Azərbaycan xalqının güclü və qüdrətli xalq olduğunu nümayiş etdirəcəyik".

# Türk Mədəniyyəti və İrsi Fonduna yeni prezident təyin olunub



***Qazaxıstanın Astana şəhərində keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) 10-cu Zirvə toplantısında Türk ölkələrinin Dövlət Başçıları tərəfindən Aktotı Raimkulova Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti təyin olunub. Fondun prezidenti Aktotı Raimkulova Türk dünyasının mədəniyyətinin və irsinin inkişafına verdiyi töhfələrə görə Günay Əfəndiyevaya minnətdarlığını bildirib.***

Günay Əfəndiyeva Aktotı Raimkulovaya təşkilatın fəaliyyətlərinin davam etdirilməsində uğurlar arzulayaraq, vəzifə müddətində böyük sevgi və həvəslə görülən ortaq çalışmalar üçün əməkdaşlara təşəkkür edib. Fondun prezidenti Aktotı Raimkulova təşkilatın Türk dünyasında ortaq etnik, mədəniyyət və tarixə əsaslanan əlaqələrin daha da dərinləşdirilməsi istiqamətində bundan sonra da layihə və fəaliyyətlərini aktiv şəkildə davam etdirəcəyini bildirib.

# Nə kölə olaq, nə kölə edək...





***Əsrlərlə insanı mal və ya pul verməklə almaq, heç bir haqqı olmadan istifadə etmək, başqasına satmaq kimi insanlıq ləyaqətini tapdalayan əməllər bəşər tarixinin qara səhifəsini təşkil edib. Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının insan alverinə qarşı mübarizə haqqında konvensiyanı qəbul etməsi ilə bağlı 2 dekabr - köləliyin ləğv edilməsi uğrunda beynəlxalq mübarizə günü kimi tarixin səhifələrinə yazılıb və ilk dəfə 1949-cu ildə qeyd olunmağa başlayıb. İllərdir, BMT köləliyin bütün müasir formalarının, o cümlədən icbari əməyin, uşaq əməyinin ən pis formalarının, məcburi nikahların, son dərəcə ağır əmək şəraitinin və insan alverinin ləğv edilməsi ilə bağlı çağırışlar etsə də, köləlik bitibmi? Yoxsa, o da dünyanın müasirliyini qəbul edərək yalnız formasını dəyişib? Bəli, hələ də köləliyin müxtəlif formaları bütün dünyada mövcuddur və bunun səbəbkarları isə yalnız biz insanlarıq. Bu barədə danışaq...***

## Erkən nikah - övladımızı kölə kimi görmək...





Bəli, övladımıza kölə kimi baxanda, onun hüquqlarını tapdalayanda və ya heç bir hüququnun olmadığını zənn edəndə onu erkən nikaha sövq edirik. Statistik məlumata əsasən, 2022-ci ildə ölkəmizdə 270 18 yaşadək qız nikaha daxil olub. Bunun illər üzrə ən yüksək göstərici kimi, 1993-cü ildə 5044, 2007-ci ildə 5023, 2008-ci ildə 5544, 2011-ci ildə 5138 qızın erkən nikaha daxil olması qarşısında zəif qalmasının səbəbi 2012-ci ildən Azərbaycan Respublikası Ailə Məcəlləsinin 10-cu maddəsinə əsasən nikah yaşının 18 yaş müəyyən edilməsi ilə bağlıdır. Qanunvericiliyə əsasən üzrlü səbəblər olduqda nikah yaşı 1 ildən çox olmayaraq azaldıla bilər. Belə olan halda 270 nəfərin hamısına üzrlü səbəb də şamil edə bilmərik. Çünki belə olarsa, digər üzrlü səbəbi çıxmaq şərtilə bu da bizim qüsurumuzdur. Deməli, övladımıza düzgün tərbiyə verə bilməmişik, onu doğru yetişdirməyi bacarmamışıq.

270 18 yaşa çatmayan qızın nikahı 270 valideynin, 2-yə vuranda isə 540 nəfərin günahıdır. Bu, hələ rəsmi statistikadır, qeydiyyata alınmamış onlarla belə nikahlar var ölkəmizdə. Deməli, 270 nəfər qız öz ailəsi tərəfindən istismar olunub, onların hüquqları valideynləri tərəfindən əlindən alınıb. Və yaxud da hüquqlarının nədən ibarət olduğu bu qızlara təlqin olunmayıb. Beləliklə də onlar erkən nikaha daxil olublar və bu da onların gələcək psixoloji vəziyyəti üçün zəmin yaradıb. Axı onlar həyatın, ailənin, qayınana-qayınata, ər qayğısının, uşaq doğmağın, onu böyütməyin nə olduğunu yetəri qədər anlamırlar.

Uşaqdan söz düşmüşkən, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2022-ci il üzrə məlumatına əsasən 2022-ci ildə ölkə üzrə 18 yaşınadək analar tərəfindən 2011 uşaq doğulub. Bu isə o deməkdir ki, 2011 uşaq ya ölümlə və ya baxımsızlıqla qarşı-qarşıya qalıb. Çünki onları dünyaya gətirən ananın hələ özünün qayğıya ehtiyacı var.

Bəlkə də bu qızların anaları da vaxtilə öz övladları kimi erkən nikaha təhrik ediliblər. Belə isə, deməli, kölə olmuşuq, kölə də edirik? Lakin gəlin, kölə də olmayaq, kölə də etməyək.

## Uşaqlar kölə deyil: onları diləndirməyin, işləməyə məcbur etməyin

Ölkəmizdə uşaq hüquqları yetərli şəkildə qorunur. Uşaqların təhsili, sağlamlığı üçün lazımi tədbirlər həyata keçirilir və bunların hər biri qanunvericiliklə tənzimlənir. Hüquq-mühafizə orqanları uşaq hüququnu daim nəzarətdə saxlayır və pozulan anda müdaxilə edərək qarşısını alır, cinayətkarı cinayətə cəlb edir.

Lakin bütün bunların qarşısında tez-tez uşaq hüquqlarının pozulması, həm də xüsusən valideynlər tərəfindən pozulmasının şahidi oluruq. İstəməyərək dünyaya uşaq gətirənlər onları sonrakı mərhələlərdə öz mənafeləri naminə işlərə təşviq edirlər. Məsələn, azyaşlı uşaqların əməyi istismar olunur. Onları küçələrdə salfet, gül satarkən və alınması üçün, sözün həqiqi mənasında, yalvardıqlarını görərkən adamın ürəyi parça-parça olur. Düşünürsən ki, bu uşağın günahı nədir ki, qışın soyuğunda əlləri dona-dona, yayın istisində başına gün vura-vura səhərdən axşama kimi küçələrdə ona-buna yalvarır.

Bəzən uşaqların dilənməsi ilə də qarşılaşırıq. Hələ üstəlik anaların uşaqları qucağına alıb yol kənarında, metronun çıxışında oturub dilənməsinə şahid oluruq. Uşağının xəstəliyini bəhanə gətirərək, bəzən xəstəliyi olmayan uşaqdan bu adla istifadə edərək asan qazanc əldə etmək yolunu dilənməkdə görən bu cür analara ana demək nə qədər doğrudur, görəsən? Onlar uşaqların məsumluğundan, günahsızlığından və ətrafdakı insanların onlara acımasından bu qədərmi insafsızcasına istifadə edirlər?

Baxırsan ki, gümrahlıq, əmək qabiliyyəti yerindədir bu qadınlarda. Bəs görəsən dilənməyə özü ilə birlikdə vadar etdiyi uşaqlarını dövlətimizin himayəsində olan baxçalara qoyub, özü bir işlə məşğul ola bilməzmi? Və yaxud da əməyini istismar etdiyi, kiçik çiyinlərini gücündən ağır işlərin altına verdiyi övladının əvəzinə özü həm gündüz, həm gecə növbələrində çalışa bilməzmi? Axı valideyn olmaq həm də fədakar olmaq deməkdir. Bir də əgər uşaqların hüquqlarını bu cür pozacaqsınızsa, nə üçün onları dünyaya gətirirsiniz? Həm özünüz kölə olursunuz kimlərəsə, həm də övladınızı kölə edirsiniz. Lakin gəlin kölə də olmayaq, kölə də etməyək.

## İnsan əşya deyil, alına-satıla

Nə üçün insana zor tətbiq olunmalıdır? Hədə-qorxu ilə kiminsə istəyi naminə işlərə sövq edilməlidir? Nə üçün insan nəyəsə məcbur edilməlidir? Onun uşaqlığından və yaxud da zəifliyindən, hüquqlarını bilməməsindən istifadə olunmalıdır? Nə üçün kiminsə gözü ona təklif olunan maddi nemətlərlə qapadılmalı, əvəzində cinayətə sürüklənməlidir? Nə üçün bir ana, bir qadın, bir ata, bir kişi, bir kimsəsizliyindən istifadə olunana gənc kiminsə köləsinə çevrilib başqalarının həyatını məhv etmək üçün narkotik alverinə qoşulmalıdır? Nə üçün bir uşağın gözünü qorxudub ondan daşıqçı kimi istifadə olunmalıdır? Nə üçün bir insanın sağlamlıq imkanlarının məhdudluğu bir başqası üçün biznes məqsədinə çevrilməlidir? Və daha çox saya biləcəyimiz onlarla bu kimi kişi, qadın və uşaqlarla bağlı insan alveri məsələləri...

Axı insan əşya deyil ki, alınasatıla. Əşya deyil ki, haraya qoysan orada dura. Və yaxud da sənin istəklərini yerinə yetirən proqramlı əşyaya çevrilə... Hələ də dünyada öz formasını dəyişərək yeni forma alan bu kimi köləliklər mövcuddur. Ən demokratik dövlətlərdən “köləlik uğrunda mübarizə aparırıq”,- deyənləri var ki, məhz onların özlərində köləliyə yol açan məqamlar hələ də var.

Ölkəmiz kiçik, müstəqilliyi cəmi 32 il olsa da, insan hüquq və azadlıqlarını dəstəkləyən ölkələrə nümunə gücündədir. Çünki da bu problemin həlli üçün zaman-zaman müxtəlif addımlar atılıb. Respublikamız 1996-cı ildə BMT-nin “Köləliyin ləğv edilməsi haqqında”, “İnsan alveri və fahişəliyin üçüncü şəxslər tərəfindən istismarı ilə mübarizə haqqında” konvensiyalarına, 2003-cü ilin may ayında isə “Transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə haqqında” Konvensiyaya və onun Protokollarına qoşulub. Bununla köləliyə qarşı mübarizədə barışmaz mövqedə olmasını bir daha sübut edib.

Azərbaycan Respublikası qanunvericiliyində “İnsan alveri”ni qismən tənzimləyən 10 maddə var. Bundan başqa, ölkəmizdə bu cinayətin potensial subyektləri hesab edilən uşaq və qadınların hüquq və azadlıqlarının müdafiəsinə yönəlmiş bir sıra normativ hüquqi aktlar da qəbul edilib.

## Beləliklə...

Zəiflərin, hüquqlarını bilməyənlərin, uşaqların, yetkinlik yaşına çatmayan oğlan və qızların, sağlamlıq imkanları məhdud olanların, qocaların yanında olaq. Onların hüquqlarını müdafiə edək. Onların pozulan hüquqlarını görəndə başımızı aşağı salıb keçməyək. Sual verək: Niyə belə edirsən? Niyə bunu edirsən? Etdiyinin nəticəsindən xəbərin varmı? Hansı yoldasan, bilirsənmi?..

Məhz bu zaman köləliklə, insana qul kimi baxanlarla mübarizə apara bilərik. Yoxsa bu gün “2 dekabr-köləliyin ləğv edilməsi uğrunda beynəlxalq müdafiə günüdür”,- deyib onu anmaqla deyil. “Nə kölə olaq, nə kölə edək!” şüarı ilə bir-birimizə yardım edək, bir-birimizin yanında olaq. Çünki kölə edən də, kölə olan da insandır.

***Mətanət Məmmədova***

# Türk dünyasının inkişafına yeni nəfəs verəcək Zəngəzur dəhlizi

*Zəngəzur dəhlizi mütləq açılacaq: Ermənistan istəsə də, istəməsə də! Çünki Zəngəzur dəhlizinin açılması Ermənistanın istəyi ilə yox, labüd və vacib məsələ kimi təsdiq olunub. Prezident İlham Əliyev hələ illər öncəki çıxışlarında da bildirirdi ki, tarixi torpaqlarımızı unutmamalıyıq və unutmuruq. Bu da gələcək fəaliyyətimiz üçün istiqamət olmalıdır, necə ki, biz bu gün də bu istiqamətdə iş görürük. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır. Bunu gənc nəsil də, dünya da bilməlidir.*




Zəngəzurun qədim Azərbaycan ərazisi olduğunu vurğulayan Prezident İlham Əliyev deyib: “Zəngəzur 1920-ci ildə, 102 il bundan öncə Ermənistana verilib. Ondan əvvəl bu ərazi bizə məxsus idi. Mən Göyçə deyərkən, onlar hazırda Sevan gölü adlandırırlar. Bu, bir həqiqətdir. 20-ci əsrin əvvəllərindəki xəritəyə baxmaq kifayətdir. Siz oraya baxarkən Sevan görməyəcəksiniz. Siz orada Göyçəni görəcəksiniz. İrəvanla bağlı da eyni məsələdir. Onlar İrəvanın tarixi hissəsini dağıdıblar. Bu, aydın faktdır, mənim əcdadlarım daxil olmaqla, azərbaycanlılar orada yaşayıblar”.

Beləliklə, Zəngəzur türk dünyasını birləşdirən bir körpü olacaq. Bu yol bir əsrdən artıq bir-birindən ayrı qalan ərazilərimizi bir-birinə bağlamaqla yanaşı, həm də Avropa ilə Asiya arasında əsas tranzit xəttin yaranmasını təmin edəcək. Bu tranzit xəttinin Azərbaycandan keçməsi ölkəmizin həm region, həm də dünya səviyyəsində geopolitik mövqeyinə çox ciddi bir töhfə olacaq. Zəngəzur dəhlizi icra edildikdən sonra Çindən yola çıxan yükün qısa bir müddət ərzində ölkəmiz vasitəsilə Avropaya çatdırılması təmin ediləcək.




Prezident İlham Əliyev Şuşanın azad olunmasında olduğu kimi Zəngəzur dəhlizini bərpa etməklə də strateji hədəfə çatır. Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün türk dünyasını birləşdirəcək. Ümumilikdə, Zəngəzur dəhlizi türk dünyasının inkişafına yeni nəfəs verəcək. Bu dəhliz, həmçinin Qərbdən Şərqə uzanan ticarət yolunun mayakına çevriləcək. Bu səbəbdən də Zəngəzur dəhlizi Azərbaycanın milli maraqlarına tam cavab verir. Ölkə rəhbəri deyib: “Azərbaycan xalqı illər əvvəl bizim əlimizdən alınmış Zəngəzura qayıdacaqdır. Xalqımız tam əmindir ki, məhz belə də olacaq”.

Prezident İlham Əliyev çıxışlarında Zəngəzur dəhlizinin çox mühüm regional və beynəlxalq əhəmiyyəti olduğunu vurğulamışdır. Kommunikasiyaların açılması, Zəngəzur dəhlizinin bərpa edilməsi nəticəsində Zəngəzur dəhlizinin bölgə və beynəlxalq yükdaşımalarında mühüm həlqə olacağdır.

Həmçinin, indi tarixi Azərbaycan torpağı olan

## ZƏNGƏZUR DƏHLİZİNİN AÇILMASI ERMƏNİSTANIN İSTƏYİ İLƏ YOX, LABÜD VƏ VACİB MƏSƏLƏ KİMİ TƏSDİQ OLUNUB

Zəngəzur dəhlizinin açılması Ermənistanın istəyi ilə yox, labüd və vacib məsələ kimi təsdiq olunub. Belə ki, Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatında Zəngəzur dəhlizinin yaradılması öz əksini tapmışdır. Bundan əlavə, 2021-ci il yanvarın 11-də imzalanmış üçtərəfli Bəyanatda da Zəngəzur dəhlizinin açılması və istismara verilməsi də nəzərdə tutulmuşdur. Bu bəyanat Prezident İlham Əliyevin qətiyyətli, prinsipial siyasəti, əzm və iradə nümayiş etdirməsi, düşünülmüş addımlar atması sayəsində nail olduğumuz böyük Qələbəmizin rəsmi şəkildə təsdiqi deməkdir. Zəngəzur dəhlizinin açılması Ermənistanın istəyi ilə yox, labüd və vacib məsələ kimi təsdiq olunub. Zəngəzur dəhlizi ilə bağlı məsələdə Azərbaycanın, Rusiyanın və Avropa İttifaqının

*PREZİDENT İLHAM ƏLİYEV: “Zəngəzur dəhlizinin açılması mütləq olmalıdır, Ermənistan bunu istəsə də, istəməsə də!”*

mövqeləri üst-üstə düşür. Əslində baxanda, Zəngəzur dəhlizinin açılması Ermənistan üçün həmdan vacibdir. Çünki, bu illər ərzində Ermənistanın yürütdüyü işğalçılıq siyasəti bu ölkəni dalana çevirib. Bu blokadanın yaradılması təbii ki, Azərbaycanın yürütdüyü düşünülmüş siyasətin nəticəsidir. Azərbaycan və Türkiyə sərhədlərini Ermənistanın üzünə




bağlayıb. O cümlədən iştirak etdiyimiz bütün beynəlxalq layihələri Ermənistandan yan keçirmişik. Düzdür, bu layihələrimizi həyata keçirərkən Ermənistanı kənarda saxlamağımızla əlaqədar çoxlu təzyiqlərlə üzləşmişik. Amma Prezident İlham Əliyevin qətiyyəti, siyasi iradəsi və iqtisadi gücümüz müstəqil siyasət yürütməyimizə və öz istəyimizə uyğun bütün layihələrin icrasına imkan verib.

## AZƏRBAYCAN DƏHLİZLƏRLƏ BAĞLI BELƏ BALANSSIZLIĞA DÖZMƏK NİYYƏTİNDƏ DEYİL

Bir sözlə, Ermənistan başa düşmür ki, Zəngəzur dəhlizi ilə bağlı üzərinə götürdüyü öhdəlikləri müəyyən olunmuş qaydada yerinə yetirməsə, Azərbaycan Laçın dəhlizini bağlamaq məcburiyyətində qalacaq. Azərbaycan dəhlizlərlə bağlı belə balanssızlığa dözmək niyyətində deyil. Ən əsası, rəsmi İrəvan bilməlidir ki, Zəngəzur dəhlizinin tezliklə açılması həm də regionda sülhün etibarlılığı üçün fundamental amillərdən biri sayılır. Və Ermənistan nəzərə almalıdır ki, Azərbaycan dəfələrlə düşmənçiliyə son qoymağa hazır olduğunu bəyan etmiş və bütün qonşu dövlətlərin iştirakı ilə regionda inkişafın və əməkdaşlığın təmin olunduğu reallığı qəbul etməyə çağırır. Bu kontekstdə Azərbaycan regionda bütün iqtisadi və nəqliyyat kommunikasiyalarının açılması üçün əməli addımlar atır. Bunu Ermənistanda da düzgün qiymətləndirmək, əməkdaşlıq üçün adekvat addımlar atmaq lazımdır. Əks halda, Ermənistan ən çox uduzan tərəfə çevriləcək.

## ZƏNGƏZUR DƏHLİZİ REGIONUMUZ ÜÇÜN YENİ İMKANLAR YARADACAQDIR

“Münaqişə artıq keçmişdə qaldığından azad olunmuş ərazilərdə irimiqyaslı tikinti işləri həyata keçirilməkdədir. Azərbaycan müasir şəhərsalma üsulları, “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyalarını tətbiq edərək, sıfırdan yeni şəhərlər və kəndlər inşa edir. Azərbaycan bütün bu işləri öz maddi imkanları hesabına görür və təkcə bu il bu məqsədlə 1.3 milyard ABŞ dolları məbləğində vəsait ayırıb”. Bunu Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində videoformatda çıxışı zamanı onu da vurğulayıb ki, Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası və Türkiyə ilə birləşdirəcək Zəngəzur dəhlizi regionumuz üçün yeni imkanlar yaradacaqdır.

Bəli, bu gün Azərbaycan Cənubi Qafqaz regionunda yeni reallıqlar yaradıb və hər kəs bunu nəzərə almalıdır. Ermənistan regional əməkdaşlıq və qonşulara qarşı qanunsuz və əsassız ərazi iddiaları arasında seçim etməlidir. Beynəlxalq ictimaiyyət bu mənada müsbət rol oynamalı və sülhün alternativinin olmamasını dərk etmək üçün Ermənistana çağırış etməlidir. Ermənistanda revanşizmin və onun silahlandırılmasının birbaşa və ya dolayı şəkildə dəstəklənməsi cəhdlərinə son qoyulmalıdır.

Bir sözlə, Prezident İlham Əliyevin düşünülmüş uzaqgörən siyasəti Azərbaycanı regionun ən vacib aktoruna çevirib. Və 44 günlük Vətən müharibəsində nümayiş etdirdiyimiz ”Dəmir yumruq” əməliyyatı ilə bu reallığı da Ermənistana məcbur qəbul etdirmişik. Əgər Ermənistan bu reallığı təsdiq etməsəydi, tamamilə məhv ola bilərdi. Yaratdığımız yeni reallıq Ermənistanla Azərbaycan arasındakı bütün kommunikasiyaların selektivlik etmədən eyni vaxtda paralel açılmasıdır. Ona görə də bu məsələ gündəliyimizdə ən aktual məsələlərdəndir.

Beləliklə, Zəngəzur dəhlizinin açılması və sülh sazişinin imzalanması üçün işlərin görülməsi zərurətdir və bunun alternativi yoxdur. Azərbaycan öz ərazi bütövlüyünü döyüş meydanında, sonra da masa arxasında təmin edib. Gələcək isə sülh və qonşuluq münasibətləri üzərində qurulmalıdır. Dünya tarixində ən böyük qanlı müharibələr də masa arxasında sonlanıb. Gələcək dinclik, təhlükəsizlik və əməkdaşlıq üzərində qurulmalıdır. Bunun alternativi yoxdur və bu reallığı Ermənistan nə qədər tez qəbul etsə, onların xeyrinədir.

Siyasi şərhçilərin fikrincə, Zəngəzur dəhlizinin istifadəyə verilməsi Azərbaycanı regionun nəqliyyat qovşaqlarının dəhlizinə çevirəcək. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin formalaşmasında yaxından iştirak edir, birbaşa həmin nəqliyyat dəhlizlərinin regional hissəsinin inkişafına, həm də maliyyə dəstəyi nümayiş etdirir. Bu, Naxçıvanın Azərbaycanın əsas ərazisi vasitəsilə həmin nəqliyyat dəhlizlərinə çıxışını təmin edəcək. Xüsusən də Şərq-Qərb nəqliyyat dəhlizinə naxçıvanlı iş adamlarının çıxışının təmini baxımından əhəmiyyətli olacaq. Dəhliz Azərbaycanın öz eksklavı olan Naxçıvan Muxtar Respublikası və Türkiyə ilə əlaqələri də gücləndirəcək, ölkəmizin geoiqtisadi əhəmiyyətini daha da artıracaq. Ən əsası, türk dünyası uzun illərdən sonra yenidən Zəngəzur dəhlizi vasitəsilə birləşəcək. Bu dəhliz Vətən müharibəsində qazandığımız tarixi uğurlarımızdan biri olmaqla, bu Azərbaycan Prezidenti İlham Əliyevin növbəti tarixi uğurudur. Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində bildirdiyi kimi: «Zəngəzur dəhlizinin açılması mütləq olmalıdır, Ermənistan bunu istəsə də, istəməsə də. Biz ortaya güclü iradə qoymuşuq, bütün işlər plan üzrə gedir. Bizim tələbimiz əsaslıdır və ədalətlidir. Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası arasında bizim bağlantımız olmalıdır və olacaqdır!».

**RƏFİQƏ KAMALQIZI**

# “Azərbaycan boyun əyməyən dövlətdir, lakin ABŞ bundan məmnun deyil....”



Leonid Kalaşnikov: Qərb Rusiyanın bütün qonşularının düşmən mühitdən ibarət olmasını təmin etməyə çalışır, amma heç nə onların istədiyi kimi olmur

**Dövlət Dumasının MDB işləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr komitəsinin sədri Leonid Kalaşnikov Cənubi Qafqazdakı tendensiyalar haqqında “Moskva-Baku” portalına müsahibəsində maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.**

**- Leonid İvanoviç, İrəvanın Vaşinqton, Paris, Brüssel, indi də Londonla münasibətlərini dərinləşdirməsi davam edir. Bu tendensiyalar nədən xəbər verir?**

- Burada yeni heç nə yoxdur. Bu, bir vaxtlar haqqında danışdığım o tendensiyaların və ssenarilərin təsdiqidir: Qərbdən, xüsusən də Cənubi Qafqazda yaxşı heç nə gözləmək olmaz. Biz görürük ki, Fransa indi Ermənistana hərbi texnika və silah verir, bununla bağlı Böyük Britaniya ilə müqavilələr necə inkişaf edir.

Sadəcə olaraq, necə deyərlər- borc və ya təmənnasız olaraq Qarabağdan çıxan ermənilərə kömək üçün, yaşamaq üçün pul versəydilər, deyərdik ki, bu yaxşıdır. Amma silah verirlər. Sual olunur: onlar həqiqətən bu silahları nə üçün təmin edirlər?




Qərb Ukraynada etdiyi kimi və indi də Ermənistanla eyni ssenaridə oynayır- regionda böyük gərginlik yaratmaq üçün. Bu vəziyyətdə birlikdə oynanan, dəstək və silah vəd edilən adamın şüuraltında müəyyən bir vektor formalaşır. Deyirlər, nə yaxşıdır, bizə bunları veriblər. Və bütün bu ”faydaları” alan dərhal düşünür: amma həqiqətən qisas ala bilərik. Qərb dünyanın istənilən yerində oxşar ssenarini həyata keçirir. Silahları köçürür, beləliklə oxşar düşüncələri, şərhləri, hərəkətə çağırışları gücləndirir. Niyə bunu edirlər? Qərb üçün bu gün Rusiyanın ətrafında yandırmaq istədiyi bir neçə “qaynar ocaq” var.

Qismən də Ermənistan və Azərbaycanla sərhədləri olan, son illərdə Qərbin düşməni olan İranın. Və bu gün Ermənistan vasitəsilə Qərbin Rusiya və İranı müşahidə etmək imkanı var. Ona görə də Ermənistanda ABŞ-ın ən böyük səfirliyi fəaliyyət göstərir. Bu vəziyyətdə Ermənistan Rusiyaya qarşı alət, İrana qarşı alət kimi çıxış edir. Qərbin respublikaya olan bu marağını başqa heç nə izah edə bilməz. Ermənistan Qərbin geosiyasi təsirini genişləndirmək üçün istifadə etdiyi tramplindir.

Təəssüf ki, Ermənistanda “yaxşı, ruslar Azərbaycanla bağlı vəziyyətlərdə bizə kömək etməyiblər, amma indi Qərb kömək edəcək” deyənlər var. Amma mən həmişə belə “bədbəxt siyasətçilərə” belə cavab verirəm: “Coğrafi baxımdan harda olduğunuza, hansı dövlətlərin əhatəsində olduğunuza baxın. Niyə bu prosesdə Rusiyanı minimuma endirməklə dövlət təhlükəsizliyinin daha yüksək olacağına qərar verdiniz? Biz qonşuyuq, Rusiya maraqlı deyil ki, tərəfdaşlarımızdan birinin digərinə qarşı düşmənçilik niyyəti olsun. Biz bunu həqiqətən istəmirik. Madam ki, siz Azərbaycanla dinc yanaşı yaşamaq yoluna qədəm qoymusunuz, ona doğru irəliləmək lazımdır. Əks halda, bütün bunların nə mənası var?

30 ildən artıq davam edən Ermənistan-Azərbaycan qarşıdurması ona gətirib çıxardı ki, Ermənistan regionda blokadada qalıb və buna görə də iqtisadi inkişaf imkanları yoxdur. İndi bunu dəyişmək üçün fürsət var. İndi, yarı yolda dayanmaq istəyirsən, sonra nə edəcəksən? Yaxşı, silahlanacaqsan, amma yaxşı nə olacaq? Siz deyirsiniz ki, Azərbaycan sizə hücum edəcək? Azərbaycan sizin ərazi bütövlüyünüzü belə rəsmən tanıdı. Bu qışqırıqlar kimə yönəlib, kim mütləq hücuma keçəcək? Və bu qışqırıqlar beynəlxalq platformalarda və evdə fransızlar, almanlar, amerikalılar, AB üzvləri tərəfindən açıq şəkildə təkrarlananda... onlar həqiqətən axmaq deyillər... bunu bir səbəbə görə edirlər... bir az əvvəl sizə danışdım.

Ermənistan üçün Ukrayna planının variantı hazırlanır. Buna heç bir şübhəm yoxdur. Və bunu məmnuniyyətlə edəcəklər. Digər tərəfdən, ermənilər hələ də başa düşməlidirlər- onların Avropa ölkələri ilə və ya Amerika ilə sərhədləri belə yoxdur ki, birtəhər bu kartı oynamağa cəhd etsinlər. Sadəcə olaraq, belə hərəkətləri ilə dövlətlərini böyük təhlükə qarşısında qoyurlar. Bu hoqqaları dərhal dayandırmaq lazımdır.

**- Ermənistan son vaxtlar daha çox eyham vurduğu kimi, doğrudan da KTMT-dən çıxa bilərmi?**

- Onun yaxın gələcəkdə bunu edəcəyini düşünmürəm. Yalnız coğrafi yaxınlığına və ətrafına görə. Amma əgər onlar tamamilə çox sərt oynasalar və Rusiyaya qarşı düşmənçilik siyasətini gücləndirməyə davam etsələr, o cümlədən Ermənistan ərazisində NATO qüvvələrinin elementlərinin getdikcə daha çox iştirakını cəlb etsələr, biz özümüz Ermənistanı tərk edəcəyik. Yaxşı, xoşlarına gəlirsə, təxribatlara əl atsınlar, amma bu təxribatlar mənim dediklərimə gətirib çıxaracaq.

**- Gördünüz ki, Vaşinqton Azərbaycanı çox ciddi təzyiqlərə məruz qoyur. Hətta ABŞ-ın vəziyyəti həll etmək istəyi görüntüsü yaratmaq cəhdlərindən sonra da Vaşinqton Bakıya qarşı aqressiv davranmaqda davam edir...**

- Amerika və bəzi Avropa ölkələri təkcə Cənubi Qafqazda deyil, Mərkəzi Asiyada da çox fəallaşıb. Onlar bilavasitə, biz bunu bilirik, öz emissarlarının bu məntiqlə söhbət apardıqları qonşularımızı hədələyirlər ki, Rusiyaya qarşı bizim sizə diktə etdiyimiz təzyiq siyasətini aparmasanız, o zaman sizi filan addımlarla cəzalandıracağıq.

Bütün bunların fonunda Azərbaycan ona qarşı təzyiqlərə, o cümlədən Rusiyaya qarşı mövqeyinə münasibətdə çox təmkinli davranır, strateji müttəfiqi olan Rusiya Federasiyasının, qonşusunun, tərəfdaşının maraqlarını anlayır və onlara hörmət edir. Azərbaycan bu gün azsaylı həqiqi suveren, müstəqil dövlətlərdən biridir. Lakin ABŞ bundan məmnun deyil. Onlar Rusiyanın bütün qonşularının düşmən mühitdən ibarət olmasını təmin etməyə çalışırlar. Amma heç nə onların xeyrinə olmur. Nə Özbəkistanla, nə Tacikistanla, nə hətta Qazaxıstanla, nə Qırğızıstanla, nə də Azərbaycanla.

Bəli, kimsə deyir ki, “biz Rusiyaya qarşı sanksiyalara əməl edəcəyik”. Amma reallıqda bu baş vermir, çünki hörmət və qonşuluq məntiqi işləyir. Və hər kəs öz coğrafi mövqeyini başa düşür. Dünyanın müxtəlif yerlərində qeyri-sabitliyin baş verməsi nə qədər çox olarsa, qonşularımız bizim mövqeyimizi bir o qədər dərk edirlər- Rusiyanın niyə narahat olduğunu. Bu isə Qərbi qəzəbləndirir. Yaxşı, bəs onlar niyə gözlənilmədən Azərbaycana qarşı “səs ucaltmağa” başlayırlar?

Əgər Qarabağ erməniləri mövzusunu işlədirlərsə, o zaman Azərbaycan özü də açıq şəkildə, müntəzəm olaraq deyir: xahiş edirik, qayıtsınlar, problem yoxdur, hamını qəbul edəcəyik. Biz birlikdə yaşamağa və davam etməyə hazırıq. Danışıq prosesi toy deyil. Bəli, ziddiyyətlər var və kompromislərə getmək lazımdır. Yol asan deyil.

Əgər Qərbdən Bakıya qarşı hər hansı təzyiqlər gəlirsə, deməli, burada nəsə yanlışdır, kimsə Azərbaycanı qara ləkə atmaq niyyətindədir. Bu, onların müttəfiqlərinə göstərdikləri müəyyən siqnaldır. Amma Azərbaycanın bəxti gətirib, güclü liderləri olub. Heydər Əliyev də, İlham Əliyev də sırf öz dövləti haqqında düşünən çox müdrik, uzaqgörən liderlərdir, onlar sırf öz dövlətlərinin mənafeyindən çıxış ediblər. Və qonşularının milli maraqları məsələsini dərk etməklə.

Rusiya ilə Azərbaycan bu gün eyni tərəfdədir. Azərbaycan isə Rusiya Federasiyasının hansı problemlərlə üzləşdiyini getdikcə daha çox başa düşür. Azərbaycan nəticə çıxarır. Ermənistan tərəfinin də nəticə çıxarması yaxşı olardı.

*Tərcümə - Elçin Bayramlı*

# Arıqlamağın dərmanı tapıldı

FELYETON



***İndi arıq olmaq dəbdir. Əvvəllər niyə bu kimin üçünsə dərd idi? Əsla. Camaat əlinə düşəni yeyirdi, ta fikirləşmirdi ki, birdən kilo alaram, ya almaram. Kök kök idi, arıq da arıq. Ən əsası isə o idi ki, nə arıqlığı, nə də köklüyü özü üçün dərd edən yox idi.***

Elə ki, müasirləşdik, Avropaya inteqrasiya etdik, Avropadan dərhal götürdüklərimizdən və tərzini çıxardıqlarımızdan biri də arıqlamaq, formada qalmaq oldu. Hə, bax, problem elə bu vaxt başladı. Xüsusilə qadınlar böyük bir çətinliklə üz-üzə qaldılar. Yeyəsən, necə yeyəsən, yeməyəsən, necə yeməyəsən. Elə bil ki, qadınların acığına dövr də dəyişdi. Su da içdilərsə, kilo almağa başladılar.

Çəkisi artıq insanlara isə artıq cəmiyyətdə qəribə baxışlar formalaşdı axı. Bu səbəbdən də qadınlar necə olursa-olsun, kilo verməyə, formaya düşməyə çalışdılar. Bunun üçün də müxtəlif yollar axtarmağa başladılar.

Məsələn, əksər qadınlar Ramazanda orucu məhz arıqlamaq üçün tutmağa başladılar. Bu oruc da belə oldu ki, səhərdən-axşama ac qaldılar, axşamsa elə yeyib-içdilər ki, heç bir faydası olmadı. Əksinə, Ramazanın sonunda baxdılar ki, əvvəlkindən də kilolu olublar. Belə olanda yenə yeni yollar axtarmağa başladılar. Necə etməli ki, bu kilolardan xilas olmalı...

Hə, bu arada artıq qadınların istəkləri məlum olduğu üçün arıqlama preparatları da ölkəyə gətirildi, məhsulları da. Qadınlar həmin preparatlardan, çaylardan istifadə etməyə başladılar. Nəticəsi isə bu oldu ki, onlarla qadın həmin preparat və çaylardan istifadə etdikləri üçün ölümcül vəziyyətə düşdülər. Belə olanda isə onlardan da imtinaya başladılar.

Arıqlamağın yolunu plates, fitnesdə görənlər bu kimi zalların sayını artırmağa başladılar və sosial şəbəkələr başladılar arıqlamağın bu yolunun reklamını aparmağa. Qadınlar da üz tutdular plates və fitnes zallarına. Bu dəfə nə baş verdi? Elə ağrılarla, yanmalarla qarşılaşdılar ki, elə birinci gedişlə də bu arıqlama metodundan vaz keçdilər.

Yaranmış şəraitdən yararlanan bəzi adamlar isə nə etdilər? Adlarını dietoloq qoyub başladılar sosial şəbəkələrdə arıqlama reseptləri satmağa. Qadınlar bundan istifadəyə başladılar, lakin bu yemək elə bir məsələdir ki, tamahı saxlamaq olmur axı...

Uzun sözün qısası, hazırda da qadınlar arıqlamaq üçün hansı üsulun daha səmərəli olmasını gündəlik olaraq axtarmaqdadırlar. Yeni onlar elə bir üsul seçmək istəyirlər ki, həm yesinlər, həm də arıqlasınlar. Gözəl-gözəl şirniyyatlardan dadmamış olmasınlar, idmanla məşğul olub özlərinə əziyyət verməsinlər, mənşəyi bilinməyən preparatlardan, məhsullardan istifadə edib həyatlarını itirməsinlər.

Bəli, bütün bunların xaricində yeni bir yol, yeni bir üsul nə ola bilər ki, qadınları müəyyən kiloda saxlaya. Onlar gözəl, cazibədar görünələr? Bu, nə ola bilər? Əslində bizə çox yaxın, lakin ağlımıza gətirmədiyimiz bir üsul var ki, hər bir qadın üçün çox əlçatandır ki... Tiktok. Deməli, arıqlamağın dərmanı tapıldı.

Sual verərsiniz ki, Tiktok hara, arıqlamaq hara? 6-10 gün ən az 5-10 dəqiqə Tiktok sosial şəbəkəsində gəzin, nəticəsini görüb, bizə dua edəcəksiniz. Vallah, bilmirəm nə dərmandır bu, amma adamda ət qoymur qala.

*Mətanət Məmmədova*

# Heydər Əliyev və Azərbaycan təhsili

***Dünya sivilizasiyasının tarixi təcrübəsi göstərir ki, elmə, təhsilə yüksək qiymət verən dövlət başçıları bununla nəinki, öz ölkələrinin iqtisadi və mədəni yüksəlişini təmin edir, həm də dünya mədəniyyətinə böyük töhfə vermiş olurlar. Bu mənada, Ulu Öndər Heydər Əliyevin milli təhsilin inkişafına göstərdiyi qayğı və diqqət özünəməxsusluğu ilə seçilir. Belə ki, Azərbaycan elminin yeni inkişaf mərhələsi Heydər Əliyevin siyasi hakimiyyətə gəldiyi vaxtdan başlamışdır desək yanılmarıq. Azərbaycan təhsilinin inkişafında Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur.***



Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin sovet dönəmində Azərbaycan təhsili artıq tənəzzüldən intibah mərhələsinə keçdi. Bu illərdə Azərbaycanda 5 yeni ali təhsil müəssisələri açıldı, orta məktəb şəbəkəsi genişləndirildi, yeni məktəb binaları tikilib istifadəyə verilməyə başladı, texniki peşə təhsilinin təkmilləşdirilməsi ön plana çəkildi.

1970-1980-cı illərdə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və qayğısı sayəsində Azərbaycan gənclərinin keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almaları təmin edildi. Həmin dövrdə ən zəruri ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən artıq Azərbaycan gəncinin keçmiş SSRİ-nin müxtəlif şəhərlərində təhsil almasına, yüksək ixtisaslı mütəxəssislər kimi hazırlanmasına nail olunmuşdur. Ulu Öndər Respublikadan kənarda təhsil almış yüksək ixtisaslı mütəxəssisləri "Azərbaycanın yetirmələri, Azərbaycanın milli sərvəti" kimi yüksək qiymətləndirirdi.

Hələ Sovet dövründə azərbaycanlı gənclərin orduya hazırlanması üçün 1971-ci ildə Bakı şəhərində Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Cəmşid Naxçıvanski adına Hərbi təmayüllü məktəb yaradılmışdı. Ulu Öndərin ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra 1997-ci ildə müvafiq sərəncamı ilə məktəbin adı dəyişdirilərək, C.Naxçıvanski adına hərbi lisey adlandırılmışdır. Bu liseyin milli zabit kadrlarımızın hazırlanmasında müstəsna rolu olmuşdur. Odur ki, sonradan torpaqlarımızın işğaldan azad olunmasında bu kadrların hünəri və rəşadəti danılmazdır.

1993-cü ildə Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə gəldikdən sonra müstəqil Azərbaycan təhsilinin dünya standartlarına uyğun qurulmasına dair layihələr həyata keçirilməyə başlanıldı. Bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də bir canlanma və yeniləşmə nəzərə çarpmağa başladı. Belə ki, ali məktəblərdə ciddi struktur dəyişiklikləri baş vermiş təhsil müəsisələrinin maddi texniki bazasının möhkəmləndirilməsinə ciddi fikir verilmiş və yeni tədris ocaqlarının tikilib istifadəyə verilməsinə başlanılmışdır.

Ulu Öndər təhsilə olan münasibətini belə ifadə edirdi. "Biz müstəqil dövlət olaraq özümüzün təhsil sistemimizi istədiyimiz kimi qururuq. Bütün dünya ölkələrinin mütərəqqi təcrübələrindən istifadə edirik. Hesab edirəm ki, indiyə qədər qazanmış təməlin üzərində Azərbaycan təhsili, məktəbi bundan sonra da təkminləşdiriləcəkdir". Azərbaycan təhsilinin beynəlxalq standartlara cavab verən bugünkü səviyyəyə çatmasında ümummilli lider Heydər Əliyevin tarixi xidmətləri olmuşdur.

Təhsildə aparılan islahatlardan danışarkən müstəqillik dövründə yeni ümumtəhsil məktəblərinin tikintisini, mövcud məktəblərin əsaslı təmiri və müasir avadanlıqlarla təmin olunmasına dair dövlət proqramının qəbulu üçün sərəncamın imzalanmasını qeyd edə bilərik. "Təhsil millətin gələcəyidir" deyən Ulu Öndər bu sahənin inkişafına xüsusi diqqət yetirir, Azərbaycan təhsilinin dünya standartları səviyyəsinə qaldırılmasında əhəmiyyətli rol oynayan bir sıra qanunların qəbul edilməsinə nail olmuş, və fərmanlar imzalamışdır. Belə ki," Azərbaycan Respublikasının təhsil sisteminin təkminləşdirilməsi haqqında" 2000-ci il 13 iyun, "Dövlət dilinin tətbiqi işinin təkminləşdirilməsi haqqında" 2001-ci il 18 iyul, "Azərbaycan Əlifbası və Azərbaycan dili" gününün təsis edilməsi haqqında 2001-ci il 09 avqust, "Azərbaycan Respublikasında Dövlət dili haqqında" qanunun təsis edilməsi barədə 2003-cü il 02 yanvar tarixli fərmanları imzalanmışdır.

Qeyd edilməlidir ki, müstəqillik dövründə təhsilə olan qayğı bölgələrdə, o cümlədən Balakən rayonunda da diqqət mərkəzində saxlanılmışdır. Belə ki, rayonda 33 ümumtəhsil məktəbi üçün yeni bina inşa olunmuş, 2 modul tipli məktəb quraşdırılmış və 3 məktəb əsaslı təmir edilmişdir. Eyni zamanda rayonda 5 körpələr evi-uşaq bağçası üçün yeni bina tikilmiş, 3 bina isə əsaslı təmir olunmuşdur.

Bunun nəticəsidir ki, Balakən rayonunda respublikamızın hər yerində olduğu kimi təhsil son illər yüksələn xətt üzrə inkişaf edib və hər il əldə etdiyi uğurlarla diqqəti cəlb edib. Son beş ildə 1317 nəfər respublikamızın müxtəlif ali məktəblərinə qəbul olunmuşdur. Rayon məktəbliləri beynəlxalq və respublika fənn olimpiadalarında yüksək nəticələr əldə etmişlər.

Bu illər ərzində rayon müəllimlərinin əməyi yüksək qiymətləndirilmiş, təhsil sahəsindəki xidmətlərinə görə 13 nəfər "Tərəqqi" medalı ilə təltif edilmiş, 7 nəfər isə "Əməkdar müəllim" fəxri adına layiq görülmüşdür.

Bildiyimiz kimi 1995-ci ildə müstəqil Azərbaycanın Konstitusiyası qəbul edilərkən dövlət dilimiz və milli mənsubiyyətimiz haqqında müxtəlif fikir ayrılıqları var idi. Ulu öndərin təşəbbüsü və prinsipial qətiyyəti ilə 1995-ci il oktyabrın 31-də Konstitusiyanın qəbulu ilə bağlı gərgin müzakirələr keçirildi. Həmin il noyabrın 12-də qəbul olunan Konstitusiyada Azərbaycan dili Azərbaycan Respublikasının Dövlət dili kimi təsbit olundu.

Ulu Öndər müəllimə və müəllim əməyinə də yüksək qiymət verirdi. "Bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən asılı olmayaraq bütün nəaliyyətlərimizə görə məktəbə, müəllimə borcluyuq. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi var. Mən dunyada müəllimdən şərəfli ad tanımıram" deyən ümummilli lider müəllimə böyük hörmətlə yanaşdığını, müəllim əməyinə yüksək qiymət verdiyini bir daha vurğulamışdır. Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə müəllimlərin sosial vəziyyətinin yaxşılaşdırılmasına, onların fəxri adlarla və digər dövlət mükafatları ilə təltif edilməsinə dair bir çox sərəncamlar imzalamışdır. Bütün bunlar Ulu Öndərin müəllim əməyinə verdiyi qiymətin əyani təzahürüdür.

Bu gün də biz iftixarla təhsil sahəsində olan uğurlarımızdan danışa bilərik. Ulu öndərin siyasi kursunu, ideologiyasını uğurla davam etdirən cənab Prezident İlham Əliyev ölkəmizdə təhsilin keyfiyyətinin daha da yüksəlməsi üçün əlindən gələni əsirgəmir. Belə ki, bu istiqamətdə aparılan işlər Azərbaycan xalqının gələcəyinə xidmət edəcək səviyyədə uğurla davam etdirilir.Vətənpərvərlik ruhunda tərbiyə edilən Azərbaycan gəncləri Prezident Müzəffər Ali Baş Komandan İlham Əliyevin komandanlığı altında 44 günlük Vətən müharibəsində öz şücaətini və rəşadətini nümayiş etdirdi və Azərbaycanın Zəfər tarixini yazdılar.



**Azad Balayev**
**YAP Balakən rayon təşkilatının sədri**

## "Əli Kərimli ABŞ-ın maliyyəsinə göz dikib"



"ABŞ-ın və Avropadakı bəzi dairələrin Azərbaycana qarşı apardıqları kampaniyanın arxasında duran maraqlar məlumdur. Bölgədə ikinci türk dövlətinin güclənməsi, hətta Mərkəzi Asiyadakı və Avropadakı türk dövlətlərinin birliyini yaratmaq yolunda qətiyyətli addımların atılması dünyanın bütün antitürk qüvvələrini ciddi narahat edir". Bunu SİA-ya açıqlamasında "Azadlıq Hərəkatçılar Birliyi"nin sədri Təhmasib Novruzov deyib.

Onun sözlərinə görə, türk dövlətlərinin birləşməsi gələcəkdə həmin qüvvələrin regionda öz maraqlarını həyata keçirmələrinə ciddi problem olacaq və bunu da yaxşı anladıqlarında sülh, beynəlxalq inkişaf naminə ümumtürk birliyinin ilbeil gücləndiyi bir zamanda həmin qüvvələrin bu addımları atması gözləniləndir: "Lakin Azərbaycanda özünü siyasətçi adlandıran, türkqanlı olduğunu sübut etməyə çalışan birisinin, konkret Əli Kərimlinin həmin qüvvələrin əlinə oynaması, təbii ki, bizləri ciddi düşündürməlidir. Necə ola bilər ki, damarlarında türk qanı daşıyasan, Azərbaycan Respublikasının vətəndaşı olasan, özün də belə anti-türk qüvvələrin dəyirmanına su tökəsən? Bunun siyasətlə, hakimiyyət uğrunda mübarizə ilə əlaqəsi olmadığını düşünürəm. Ən azından Əli və onun kimilər yaxşı bilirlər ki, Azərbaycan cəmiyyətinin 99 faizi həm Azərbaycanın son illərdəki uğurlarını, həm də türk birliyi yolunda atılan tarixi addımları birmənalı dəstəkləyir. Siyasətlə məşğul olan birisinin xalqın mütləq əksəriyyətinin dəstəklədiyi nailiyyətlərə qarşı çıxması birbaşa həmin qüvvələri qarşısına almaq deməkdir. Nəticə etibarilə ona inananların və onu dəstəkləyənlərin (əlbəttə, əgər təktük varsa-T.N.) sayının kəskin şəkildə azalması qaçılmazdır ki, bu da siyasətlə məşğul olan, hakimiyyət uğrunda mübarizə aparan qur qurumun elektoratını itirməsi deməkdir. Belə olduğu halda, normalda siyasətçi bu addımları atmamalıdır. Atırsa, deməli torbada pişik var. Bu pişik də ancaq maddi maraq ola bilər. Yəni, onsuz da hakimiyyətə gələcəyinə ümidlərini itirən siyasət dəllalları belə olduğu halda az-çox nüfuzundan maliyyə əldə etmək üçün istifadə edir. Əli Kərimli və onun kimilər indiki vəziyyətdə ABŞ və bəzi Avropa dövlətlərinin maliyyəsinə göz dikir və bu cür açıqlamalarla həmin qüvvələrdən maliyyə əldə edir. Atalarımız demiş, utanmasan oynamağa nə var? Buğda yeyib cənnətdən çıxan belə siyasətçilər itirdiklərinin müqabilində utanmadan "şalako" oynayıb kapital toplamaq istəyirlər, vəssalam! Onların belə fəaliyyətlərinin Azərbaycanın siyasi kursuna hər hansı zərər vura biləcəyini isə düşünmürəm. Çıxardıqları mıx elə özlərinə dəyəcək!".

**MÜNASİBƏT**

# 3 dekabr - Beynəlxalq Əlillər Günüdür

***Beynəlxalq Əlillər Günü bütün dünyada hər il dekabrın 3-də qeyd edilir və bu barədə 1992-ci il dekabrın 14-də BMT Baş Assambleyasının qətnaməsi qəbul olunub. Əlbəttə ki, onun hədəfi - ictimai həyatın bütün sahələrində əlillərin hüquqlarının qorunması və geniş ictimaiyyətin diqqətini onların problemlərinə yönəltməkdir. Statistik məlumatlara əsaslanıb deyə bilərik ki, müasir dünyada təxminən bir milyard əlil yaşayır və onlar cəmiyyətin həyatında tamhüquqlu üzv kimi iştirak etmək üçün fiziki, ictimai-iqtisadi və davranış məhdudiyyətləri ilə üzləşirlər.***




Ölkəmizdə bu kateqoriyadan olan insanlara həssaslıqla yanaşılır. Azərbaycan BMT Baş Məclisi tərəfindən 2006-cı ildə qəbul edilmiş ”Əlillərin hüquqları haqqında” Konvensiyaya qoşulub. Ölkəmizdə əlillərin sosial müdafiəsi ilə bağlı həyata keçirilən geniş miqyaslı tədbirlərin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. İnsan amilini xüsusi diqqətdə saxlayan görkəmli dövlət xadimi, Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə əlillərin sosial müdafiəsi, onların cəmiyyətə inteqrasiyası ildən-ilə gücləndirilib. Ölkədə əlillərin sosial müdafiəsi ilə bağlı dövlət proqramı hazırlanıb. Həmin proqramda əlilliyin qarşısının alınması, əlillərin reablitasiyası və sosial müdafiəsi haqqında qanunun bütün müddəaları öz əksini tapıb. Bakıda və regionlarda əlillər üçün reablitasiya mərkəzləri, protez-ortopedik müəssislər yaradılıb.

## VƏD VƏ ƏMƏL HƏR ZAMAN ÖZÜNÜ TƏSDİQLƏYİR

Hər bir cəmiyyətin tərəqqisinin əsas məqsədləri sırasında yer alan sosial rifah və onun daim yüksələn xətt üzrə inkişafına nail olunması müasir dövrdə ən vacib vəzifələrdən biridir. Sosial rifah halının, insanların həyat səviyyəsinin yüksək olmadığı cəmiyyətdə və dövlətdə böyük nailiyyətlərlə müşayiət edilən inkişafdan söhbət açmaq mümkün deyil. Sosial siyasət insanların həyatının bütün sahələrini - əmək və məişət şəraitinin yaxşılaşdırılmasını, sosial ədalət prinsipinin reallaşdırılmasını, əhalinin etibarlı sosial müdafiəsinə nail olunmasını, məşğulluq probleminin həllini, maddi və mənəvi tələblərin təminatını və digər bu qəbildən olan halları əhatə edir. Ölkədə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə bu sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində əhalinin, onun müxtəlif, o cümlədən, aztəminatlı təbəqəsinin, eləcə də əlillərin etibarlı sosial təminatı diqqətdədir. 44 günlük Vətən müharibəsində sağlamlığını itirmiş oğulların sağlamlığının bərpası və normal həyata qayıtmaları üçün dövlətimiz tərəfindən addımlar atılır. Dövlət başçısının çıxışlarının birində bildirdiyi kimi ”Siz yaralanmısınız. Amma bilin ki, biz sizi sağaldacağıq. Ən ağır yaralanmış hərbçilərimizi həyata qaytaracağıq. Bizim həkimlərimiz indi gecə-gündüz çalışırlar. Bundan sonra da normal həyata qayıtmaq üçün bütün lazımi tədbirlər görüləcək”. Əlbəttə ki, vəd və əməl hər zaman özünü təsdiqləyib. Vurğulamaq yerinə düşər ki, əlilliyi olan insanlara Ümummilli Lider Heydər Əliyevin vaxtilə göstərdiyi diqqət və qayğı 2003-cü ildən etibarən, Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilir. ”Hər bir vətəndaş bizim üçün qiymətlidir, dəyərlidir. Fiziki cəhətdən qüsurlu insanlar isə xüsusi qayğıya layiqdirlər və





biz çalışırıq ki, bunu edək”- deyən dövlət başçısının bu sözləri əlilliyi olan şəxslərin sosial müdafiəsinin daim gücləndirilməsində öz əməli təsdiqini tapır. Son illərdə bu sahədə qanunvericilik bazası daha da təkmilləşdirilir. Cəmiyyətin ümumi inkişaf prosesinə uyğun olaraq, bu kateqoriyadan olan şəxslərin sosial təminatını daha da yaxşılaşdıran, habelə ayrı-ayrı sosial məsələlərin həllinə imkanlar yaradan qanunlar qəbul edilir, eyni zamanda, onların maddi təminatını gücləndirmək məqsədilə yeni təqaüd və müavinətlər təsis edilir, pensiyaların və digər sosial ödənişlərin məbləği mütəmadi artırılır. Azərbaycanda əlil hüquqlarının qorunması, onların sağlamlıqlarının bərpası, sosial rifahının yaxşılaşdırılması, mənzillə təminatı, peşə ixtisasına yiyələnməsi, bir sözlə, tam hüquqlu üzv kimi cəmiyyətə inteqrasiya olunması üçün tədbirlər görülür. Həmin sahələrin hər biri üzrə lazımlı addımlar atılır.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında 44 günlük müharibədə qazandığımız Zəfər xalqımızın minlərlə qəhrəman övladının, vətənpərvər gənclərimizin igidliyi və rəşadəti sayəsində tariximizə yazılmış şanlı salnamədir. Ölkəmizin ərazi bütövlüyü, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şücaət göstərən qazilərə, bu yolda canını fəda edən qəhrəmanlarımıza, şəhid ailələrinə dövlətimiz tərəfindən sosial qayğıların həll edilməsi üçün ardıcıl olaraq zəruri tədbirlər görülür. Onlar üçün qanunvericilikdə nəzərdə tutulmuş imtiyaz və müavinətlərin icrası təmin olunur, bu istiqamətdə yeni sosial dəstək proqramları həyata keçirilir. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən bu istiqamətdə imzalanan fərman və sərəncamlar, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu şəxslərə mərhəmətli qayğısı hər bir ölkə vətəndaşı tərəfindən təqdirəlayiq hal kimi yüksək qiymətləndirilir. Bildiyimiz kimi, ölkəmizdə əlillik sahəsində yeni meyarlar tətbiq olunub. Yeni meyarlara əsasən, əlillik artıq 3 dərəcə üzrə məhdud çərçivədə deyil, orqanizmin funksiyalarının itirilməsi faizinin müəyyən edilməsi əsasında, daha əhatəli şəkildə qiymətləndirilir. Bu zaman şəxsin özünəqulluq, sərbəst hərəkətetmə, istiqamət seçmə, ünsiyyət, davranışına nəzarət etmə, öyrənmə və əmək fəaliyyəti üzrə insanın həyat fəaliyyətinin 7 əsas kateqoriyasının məhdudlaşma dərəcəsi əsas götürülür.Qazilərin keyfiyyətli reabilitasiya xidmətləri ilə təminatında son illərdə müasir tələblərə uyğun qurularaq təchiz olunmuş 12 reabilitasiya müəssisəsi bu sahədə mühüm potensial rolunu oynayır. Müharibənin qurtarmasından ötən müddət ərizində döyüş meydanında sağlamlığını itirmiş hərbçilərin sağlamlığının tam bərpa məqsədi ilə 4-cü nəsil müasir protezlərlə təmin edilib. Vurğulamaq yerinə düşər ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın tapşırığı ilə Heydər Əliyev Fondu ”2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi” layihəsini həyata keçirib. Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərimiz Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Fondun icra etdiyi xüsusi layihə çərçivəsində Almaniya, İslandiya, İngiltərənin dünyada müasir protez istehsalçıları kimi tanınan şirkətlərinin yüksək texnologiyalı məhsulları ilə təmin ediliblər. ”Bilirsiniz ki, Birinci Qarabağ müharibəsində əlini, qolunu, ayağını itirmiş hərbçilərimiz üçün Mehriban xanımın şəxsi təşəbbüsü və nəzarəti altında müasir protezlər gətirilir. O protezlər ki, insanlar o protezlərdən istifadə edib futbol da oynaya bilərlər. Bütün bunlar təmin ediləcək”, – deyə Prezident bildirib.

## “BÜTÜN ŞƏHİD AİLƏLƏRİ, QARABAĞ QAZİLƏRİ BİLMƏLİDİRLƏR Kİ, BİZ DAİM ONLARIN YANINDAYIQ, SÖZDƏ YOX, ƏMƏLDƏ”

Qarabağ müharibəsi əlillərinə dövlət qayğısı siyasətinə dəstək məqsədi daşıyan bu layihə çərçivəsində bir qrup Qarabağ müharibəsi əlili Heydər Əliyev Fondunun dəstəyi ilə yüksək texnologiyalı protezlərlə təmin olunub. Döyüşlərində əlil olmuş şəxslər yüksək texnologiyalı reabilitasiya vasitələri, hərəkət edən son - 4-cü nəsil müasir protezlərlə təmin edilib. ”Bax, bunu biz edirik... Biz artıq bir neçə reabilitasiya mərkəzi yaratmışıq və yaralanmış hərbçilərimiz orada öz sağlamlıqlarını bərpa edirlər. Bu, çox genişmiqyaslı, böyük vəsait tələb edən proqramlardır. Ancaq biz bunu edirik və bundan sonra da edəcəyik. Bütün şəhid ailələri, Qarabağ qaziləri bilməlidirlər ki, biz daim onların yanındayıq, sözdə yox, əməldə”, - Prezident qeyd edib.Təkcə bu ilin 10 ayında əlilliyi olan şəxslərə ötən ilin müvafiq dövrünə nisbətən 46 faiz çox olmaqla 71,2 min reabilitasiya vasitəsi verilib. Onlardan 317-i təkərli oturacaq (o cümlədən, 310-u mühərrikli təkərli oturacaq), 2031-i aşağı və yuxarı ətraf, habelə 364-ü döş protezi, 1319-u eşitmə aparatı, 2363-ü qoltuqaltı və dirsəkaltı ağac olub. Həmçinin əlilliyi olan şəxslərə 2436 cüt protez ayaqqabı, 5842 yarım cüt ortopedik ayaqqabı 146 korset və s. reabilitasiya vasitələri təqdim olunub. Yanvar-oktyabr aylarında ümumilikdə 9 min nəfər əlilliyi olan şəxs reabilitasiya vasitəsi ilə təmin edilib. Tarixi Zəfərimizlə yekunlaşan 44 günlük Vətən müharibəsindən sonra sosial dəstək proqramı çərçivəsində müharibə ilə əlaqədar əlilliyi olan 2035 şəxsə 46 min reabilitasiya vasitəsi verilib, həmçinin müharibə ilə əlaqədar əlilliyi olan 448 şəxs 467 ədəd yüksək texnologiyalı müasir protezlə təmin olunub. Müharibə veteranları üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik bizneslərin yaradılması işləri davam edir. Bu gün Bakı və bölgələrdə daha bir qrup müharibə veteranı, o cümlədən Vətən müharibəsi ilə əlaqədar əlilliyi olan şəxs seçdikləri fəaliyyət istiqamətləri (avtotəmizləmə və avtoçilingər) üzrə lazımi avadanlıqlarla təmin edilməklə onlar üçün kiçik bizneslər qurulub.Tarixi Zəfərimizlə başa çatan Vətən müharibəsindən sonrakı dövrdə şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 20,3 min şəxs aktiv məşğulluq proqramlarına cəlb olunub. Onlardan 10,3 min şəxs özünüməşğulluq proqramına cəlb edilməklə onlar üçün proqramın dəstəyi ilə kiçik təsərrüfatlar yaradılıb. Proqrama cəlb edilən şəxslər ilk olaraq təlimlərə cəlb edilir, daha sonra isə qiymətləndirmədən keçərək aktivlərlə təmin olunurlar.Aktivlərlə təmin olunan şəxslərə sonrakı mərhələdə biznesin idarə edilməsi və inkişafı ilə bağlı məsləhət xidmətləri də göstərilir. Dövlət başçısının ”Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş şəxslərin yüksək texnologiyalı reabilitasiya vasitələri ilə təmin olunmasına dair əlavə tədbirlər haqqında” 30 mart 2017-ci il tarixli Sərəncamı bu istiqamətdə mühüm addımın atılmasına imkan verib. Ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi zamanı sağlamlıqlarını itirmiş qəhrəman Vətən övladları hər zaman diqqət və qayğı ilə əhatə olunub. Onların hər birinin aktiv həyat tərzinin təmin edilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Prezident İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə ”YAŞAT” Fondunun yaradılması, Fond tərəfindən qısa müddətdə ciddi işlərin görülməsinə başlanılması nəticəsində davamlı olaraq müharibə əlilləri və şəhid ailələrinin, o cümlədən müharibə veteranlarının sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən intensiv tədbirlər artıq öz təsirli nəticələrini verməkdədir. Eyni zamanda, şəhid ailələri və müharibə əlillərinin mənzil və fərdi evlə, müharibə əlillərinin avtomobillə təminatı tədbirləri yüksək səviyyədə davam etdirilir.

Əlillərə mütəmadi olaraq yeni mənzillər, avtomobillər verilir. Onların müalicəsi üçün reabilitasiya mərkəzləri açılır və lazım gələndə isə müalicə olunmaq üçün xarici ölkələrə göndərilirlər. Bir sözlə, dövlətin bu təbəqəyə göstərdiyi qayğı göz önündədir.

***Nəzakət ƏLƏDDİNQIZI***

Təhlil

*Azərbaycan dünyanın inkişaf etmiş dövlətləri arasında ən etibarlı tərəfdaş ölkə olaraq tanınır və qəbul edilir. Bütün bunlar Azərbaycanın müstəqil siyasətinin nəticəsi, hər bir sahədə zəngin təcrübəyə malik olmasından irəli gəlir. Təbii ki, Azərbaycanın qazandığı uğurları şərtləndirən əsas amil Prezident İlham Əliyevin düşünülmüş iqtisadi siyasət aparmasıdır. İqtisadi, sosial uğurlar əhalinin daha firavan yaşamasına təminat verir.*



# ABŞ ikiüzlülük və riyakarlıq dövrünü yaşayır

Hər il insanların sosial rifah halının yaxşılaşması, çoxsaylı yeni iş yerlərinin yaradılması, xüsusilə də, işğaldan azad edilən ərazilər də geniş miqyaslı quruculuq, abadlıq işlərini aparılması, bölgələrə köçürülən insanların məşğulluğunun təmin olunması istiqamətində uğurlu addımların atılması aparılan dövlət siyasətinin düzgün və əsaslı olduğunu təsdiqləyir. Azərbaycan Prezidenti İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, bizim siyasətin mərkəzində Azərbaycan xalqı dayanır, onun sosial rifahının gündən-günə yaxşılaşdırılması dayanır.

## Pozucu beyinləri işə salmaqla Azərbaycanın uğurlarını əngəlləməyə çalışırlar

Böyük qələbələr, möhtəşəm uğurlar bəzi xarici ölkələri ciddi şəkildə narahat edir. Bu baxımdan, bütün resurslarını, pozucu beyinləri işə salmaqla Azərbaycanın müstəqil siyasətini, sosial, iqtisadi, hərbi uğurlarını əngəlləməyə çalışırlar. Bu sırada Avropanın bəzi ölkələrinin və ABŞ-ın yer alması təəccüb doğurur. Çünki Azərbaycan Avropanın enerji təhlükəsizliyinə xüsusi töhfələr verən ölkə olmaqla yanaşı, hər iki dövlətin maraqlarına xeyir verən ikitərəfli əməkdaşlıqlara üstünlük verib. Azərbaycan təbii qazını Avropaya nəql edən və Cənub Qaz Dəhlizinin bir hissəsi olan Trans-Adriatik qaz kəməri Yunanıstan və Albaniyadan keçir. 2022-ci ildə Avropa İttifaqı ilə Azərbaycan arasında "Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" nun imzalanması, bəzi ölkələrə neft məhsulları ixrac etməsi, qaz təchizatını gerçəkləşdirməsi qeyd olunanların təsdiqi sayıla bilər. Eyni zamanda, Azərbaycan Respublikasının



Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasına işgüzar səfəri, davamlı və pozitiv siyasi dialoqun inkişafından xəbər verir. Səfər çərçivəsində Prezident İlham Əliyev Sofiyada "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan) və "Eustream" (Slovakiya) və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumu"nun imzalanması mərasimində, Sofiyada SOCAR-ın Bolqarıstan Respublikasındakı ofisinin açılışında iştirak edib, Bolqarıstan Respublikasının Prezidenti cənab Rumen Radev ilə təkbətək görüş keçirib. Ölkəmizin Rumuniya, Sloveniya, Macarıstan, Yunanıstan, Albaniya və digər dövlətlərlə geniş əməkdaşlıq, əlaqələri mövcuddur. Bu əlaqələrin dostluq üzərində qurulmasının nəticəsi olaraq BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı - SPECA-nın 25-ci ildönümünə həsr olunan Zirvə görüşündə fəxri qonaq qismində iştirak edən Macarıstanın Baş naziri Viktor Orban ilə Prezident İlham Əliyev noyabrın 24-də işğaldan azad olunmuş Cəbrayıl rayonunun Soltanlı kəndinin təməlqoyma mərasimini birgə həyata keçirbilər. Layihəni macar şirkətlə-



rinin iştirakı ilə icra olunması böyük əhəmiyyətə malikdir. Yəni Azərbaycan Avropanın bəzi ölkələri ilə səmimi və mehriban dostluq üzərində qurulan əməkdaşlıq əlaqələri mövcuddur. Lakin bu əlaqələri Almaniya, Fransa kimi dövlətlərə, okeanın o tayında bölgəyə boyalanan ABŞ-a aid etmək olmaz. Çünki sözügedən dövlətlər Azərbaycanın uğurlarına qısqanclıqla yanaşırlar, regionun lider dövləti olmasından, Avropaya müəyyən məsələləri diqtə edən dövlət olmasından narahatçılıq keçirilər.

## ABŞ bəşəri dəyərlərə zidd siyasət aparır

ABŞ yanlış və maraqlara söykənən siyasət aparmaqla dünya birliyindən özünü tədric edib.



Demək olar ki, dünya xalqlarının az qala 90 faizi ABŞ-a nifrət edir, ABŞ-ın dünya üçün təhlükə hesab edirlər. ABŞ-da demokratik dəyərlər ayaqlar altına atılır, insanlar zorakılığa məruz qalırlar, lakin hakimiyyət bunu görmək istəmir. Hər məqamda başqa ölkələrdə xırda məişət problemlərinin olmasını əsas gətirib, hay-küy qaldırır. Dəfələrlə bu cür yanaşmanı Azərbaycana qarşıda nümayiş etdirib. Bu gün dünyanın müxtəlif bölgələrində baş verən siyasi kataklizmlər, müharibələr, dövlət çevrilişləri, vətəndaş müharibələrində ABŞ-ın iştirakı və rolu var. Elə bir münaqişəli dövlət yoxdur ki, orada Fransa kimi ABŞ-ın da əli olmasın. Liviya, Suriya, İraqın, Əfqanıstanın düşdüyü vəziyyət hər şey sübut edir. 20 il Əfqanıstanı işğal altında saxlayan ABŞ bu ölkə-



də bir dənə də olsun obyekt tikmədi, yol salmadı, amma bu illər ərzində bütün ölkəni narkotik plantasiyasına çevirdi. Son məlumatlara görə, ABŞ Əfqanıstanı tərk etdikdən sonra bu ölkədə narkotik plantasiyalarının həcmi 20 dəfədən çox azalıb. Bu gün Qəzzada baş verənlərin ssenari müəllifi də Vaşinqtondur. Rusiya-Ukrayna qarşıdurmasını alovlandıran və bu alovu sönməyə qoymayan məhz Amerikadır. Ukraynanın düşdüyü vəziyyət, xüsusilə də, Ukraynanın bir dövlət kimi məhv olmaq təhlükəsi ilə üzüzə qalmasının günahkarı ABŞdır. ABŞ-ın Latın Amerikasında, Afrika qitəsində törətdiyi cinayətlər unudulmayıb. Təbii ki, heç zaman törətdiyi soyqırımı aktları yaddan çıxmayacaq. Bu baxımdandır ki, Latın Amerikası ölkələrində Amerikaya qarşı kəskin mənfi münasibət mövcuddur. Bu mənfi yanaşmalar getdikcə daha da dərinləşməkdədir. İndi isə ABŞ İsrail-Fələstin qarşıdurmasını gərginləşdirməyə çalışır. Bütün dünya münaqişənin sülhlə əvəzlənməsinə çalışdığı halda rəsmi Vaşinqton İsraili müxtəlif yüksək dəqiqliq silahlarla təchiz etməklə qızışdırıcı mövqe tutur. Onları Qəzzanın dağıdılması, dinc insanların həyatlarını itirməsi maraqlandırmır. Məqsəd müharibənin davam etməsi və öz silahlarını qarşıduran tərəflərə, xüsusilə də İsrailə sırımaqdır.

## ABŞ Ermənistandakı revanşistləri terror aktları törətməyə təhrik edir

Azərbaycan ərazi bütövlüyü bərpa etdikdən sonra ABŞ daha açıq formada anormal yanaşmasını nümayiş etdirdi. Noyabrın 15-də ABŞ Konqresi "Ermənilərin müdafiəsi haqqında qərar" qəbul etməklə, ölkəmizə olan ikili siyasətini əyani şəkildə təsdiqləmiş oldu. Bəlli oldu ki, ABŞ Azərbaycana qarşı olan tarixi səhv siyasətini dəyişməyib. 30 illik erməni işğalı zamanı ABŞ Azərbaycana dəstək göstərmədiyi halda Qarabağdakı separatçılara mina təmizləmə adı altında ildə 10 milyon dollar vəsait ayırıb. Dəfələrlə separatçılar ABŞda yardım kampaniyaları keçirib milyonlarla dollar maliyyə vəsaiti yığıblar. Bir dəfə də olsun Konqresdə Ermənistanın Azərbaycana qarşı terrorçu əməllərini, işğalçı siyasəti tənqid edən məsələ müzakirə etmədi. Adi görünən məsələ ilə bağlı çıxış etməkdən də imtina edib. Əksinə, 1992-ci ildə Ermənistan ardıcıl şəkildə Azərbaycan torpaqlarını işğal edən zaman ABŞ azadlığa dəstək aktına 907-ci əlavəni qəbul etdi. Bu qondarma əlavə bu gün də qüvvədədir. Sadəcə olaraq, ABŞ prezidentləri onun hüquqi qüvvəsini hər il dayandırırlar. Fikir verin, Azərbaycanın torpaqları ardıcıl olaraq Ermənistan tərəfindən işğal edilir, haqsız çıxarılan tərəf yenə də Azərbaycan olur. Bu, ABŞ-ın riyakarlığının və ikiüzlü siyasətinin göstəricisidir. Təbii ki, Azərbaycan xalqı uzun illər bu pisliyi, riyakarlığı görüb, bundan hiddətlənib və heç vaxt unutmayacaq. ABŞ-ın Azərbaycana olan yanlış siyasəti söz yox ki, ermənipərəst dairələrin göstərişi və sifarişidir. Əgər bir dövlət erməni lobbisindən asılıdırsa və siyasətin erməni lobbisinin sifarişləri əsasında qurursa, o dövlət elə terrorçu Ermənistandan heç nə ilə fərqlənmir. Haqlı olaraq nifrətə və ittihama layiqdir.

**İ.ƏLİYEV**

# Qiyməti endirilməyən endirim məhsulları




*Həm real, həm də online mağazaların sevimli təbliğat və müştəri cəlb etmə taktikası olan endirim kampaniyalarının toruna çox insan düşür. Mağazaların vitrinlərində, iri reklam şitlərində, telefonumuza gələn reklam və xəbərdarlıqlarda satış qiymətlərinin xeyli dərəcədə aşağı salınması barədə israrla məlumat verilir. Rəqəmlər də adamı şirnikləndirir, 50 %, 70%, 80% endirimə kim biganə qala bilər ki?*










Əksəriyyətimiz üçün zəruri mallar kateqoriyasında geyim hətta qidadan da öndə yer alır. Geyinməyi, üstəlik yaxşı və dəblə geyinməyi sevən insanlar çoxdur aramızda. Ən ucuz və keyfiyyətsiz ərzaqla qidalanan, həyat standartları minimumda olan, amma bahalı və dəbdə olan geyimə üstünlük verən insanlar sizin də ətrafınızda var. Xüsusilə bayram ərəfələrində hər tərəfdən hücuma keçən endirim kampaniyaları onlar üçün fürsət olur.

Əslində, endirim kampaniyası, müəyyən bir müddət çərçivəsində istehlakçılara yüksək keyfiyyətli malları güzəştli qiymətlərlə satmaqdan ibarətdir. Ölkəmizdə isə, məlum prosesin reallaşdırılmasında məqsəd yalnız satılacaq mal və məhsullara tələbatı artırmaq üçün onların reklamının təşkili, satılmayan malları baha qiymətə alıcılara sırımaqdır. Belə vəziyyətdə, il boyu 100 manata təklif edilən paltonu noyabr ayında 150 manata qaldırıb yeni il öncəsi 110 manata təklif etmək də endirim kampaniyası deməkdir.

Hazırda paytaxtın geyim mağazalarının əksəriyyəti böyük “endirim” kampaniyasına start versə də, qiymətlərdə ciddi ucuzlaşma müşahidə olunmur. Həmin mağazaların əksəriyyətinin vitrinlərində yazılmış lövhələrdə 30, 50, hətta 70 faiz endirim elan edildiyi yazılır. Real dəyərinin 10-20 manat olduğu geyimlər süni qiymət artımı ilə təqdim edilir, yeni il öncəsi isə bayram endirimi adı ilə yenə də dəyərindən baha təklif edilir. Əgər bir məhsulun qiyməti 20 manat idisə, hazırda həmin rəqəm 40 manat göstərilir və 50 faiz endirimlə yenidən 20 manata satılır. Hər bir halda belə “endirim” kampaniyaları zamanı mağaza heç nə itirmir, əksinə, əvvəlkindən çox qazanır. Çünki endirim adı eşidərək mağazaya daxil olan alıcıların sayı artır.

Dünyada endirim kampaniyalarının bir mahiyyəti də məövsüm və ya il sonu geyim kolleksiyasını növbəti ilə ötürməmək üçün maya dəyərinə təqdim etməkdən ibarətdir. Bu həm mağazaların anbarını növbəti kolleksiya üçün boşaltması, həm də insanların ehtiyacını keyfiyyətli təmin etməsi deməkdir. Hər mövsümün sonuna doğru geyim kolleksiyalarında endirim kampaniyaları elan olunur və beləliklə də bu malların demək olar ki hamısı satılır. Bizdə isə, əksər hallarda satılmamış mallar növbəti ilə saxlanılır, anbarda köhnəlir. Biz bu prosesi məktəbli geyimləri satışı zamanı da müşahidə etdik. Məktəbin açılmasına 1 gün qalanadək bir anbar məhsulu olan sahibkar əlindəki məhsulu satmaq üçün endirim etmədi, dolayısı ilə növbəti il məktəb mövsümünədək o məhsullar anbarda qalacaq.

Məlumat üçün qeyd edək ki, endirim kampaniyaların təşkilinin də standartı olur. Rusiyada 25 faizdən, Rumıniyada 30 faizdən artıq endirim dərəcəsi təyin etməyə icazə verilmir. Bu da onunla bağlıdır ki, satılan malın maya dəyərinin üzərinə ən çoxu 25-30 faiz əlavə oluna bilər. Maya dəyərindən aşağı qiymətə malın satılması sahibkara sərf etmir. Deməli, burada nə isə uyğunsuzluq var.

***Lalə Mehralı***



**Elçin Bayramlı**

## Dövlət orqanları yerli avtomobilləri niyə almır?

***Bu yaxında xəbər yayıldı ki, Hacıqabul sənaye məhəlləsində yeni model avtomobillər yığılacaq. Bundan əlavə, həm Naxçıvanda, həm də Neftçaladakı zavodda yeni modellərin yığımına başlanacaq. Bu zavodlarda uzun illərdir müxtəlif növ minik maşınları istehsal olunur. Lakin biz küçə və yollarımızda yerli avtomobilləri çox az görürük.***

Sürücülərin çoxu qeyd edir ki, bu maşınlar arzuolunan keyfiyyətdə deyil, üstəlik, qiyməti və kredit şərtləri uyğun deyil. Deyim ki, əvvəla bu maşınlar büdcə sinifi maşınlardır, bu səbəbdən keyfiyyətləri də orta səviyyədədir. Digər avtomobil markalarının da problemləri var və belə maşınların ustalarda qaldığını çox görürük. Üstəlik, bunların çoxu 15-20 ilin, bəzən 30-40 ilin maşınlarıdır. Lakin insanlarımız onlara üstünlük verir, yerli maşınlara yox. Burada çox saylı səbəblər var. Ən əsası isə yerli yığım maşınların qiymətinin o qədər də ucuz olmaması, kredit şərtlərinin yüngül olmamasıdır. Əgər bu məsələ həll edilsə, yerli maşınları alanların sayı artar.

Son vaxtlar tez-tez xəbərlər yayılır ki, köhnə maşınların yenilənməsi üçün xüsusi proqram hazırlanır. Belə ki, istismar müddəti bitmiş, qəzalı vəziyyətdə olan maşınların sahibləri onları təhvil verib əvəzinə müəyyən məbləğdə vauçer alacaq, bu vauçerlə isə yeni avtomobili güşətlə ala biləcək. Bu proqram tətbiq edilsə, həm ölkənin çox köhnə olan avtomobil parkı yenilənmiş olar, həm də yerli avtomobillərin satışında böyük artım olar.

Məlum olduğu kimi, Azərbaycanda yığılan ən ucuz avtomobillərin qiyməti ortalama 15-20 min manat civarındadır. Əgər köhnə və yarasız maşınları təhvil verənlərə yeni yerli maşınları 50 faiz güzəştlə və ya az faizli, uzunmüddətli kreditlə versələr, avtomobil sahibləri bunda maraqlı olarlar.

Yerli avtomobillərin ən böyük payı dövlət orqanlarında ola bilərdi ki, bu da müxtəlif səbəblərdən baş tutmadı. Bir neçə il əvvəl ölkə prezidenti dövlət orqanlarını yerli maşınları almağa çağırdı. İlk vaxtlar bu çağırışa cavab olaraq bəzi dövlət orqanları öz ehtiyacları üçün yerli yığım maşınları alsalar da, sonralar bu proses dayandı. Sanki qısa müddətli bir kampaniya xarakterli olaraq qaldı. Bu gün biz əksər dövlət orqanlarının, idarə, təşkilat və müəssisələrinin maşınlarının xarici istehsal olduğunu görürük. Halbuki, bu avtomobillər yerli maşınlardan 3-5 dəfə bahadır.

Hansısa müdirin və ya məmurun 50-100 minik maşında gəzməsi vacib deyil, dövlətin pulunu buna xərcləməyə dəyməz. Ona görə də, hesab edirəm ki, bu tələb rəsmi və qəti olmalıdır. Bütün dövlət təşkilatları yerli avtomobil almalıdırlar. Bu halda avtomobil sənayesi sürətli inkişaf edər. Getdikcə ehtiyat hissələrinin çoxunun ölkəmizdə istehsalı tətbiq oluna və böyük bir sənaye sahəsi yaranar.

Qeyd etmək lazımdır ki, Azərbaycanda demək olar ki, əksər sinif maşınlar yığılır- sedan, krossover, pikap, universal, xeçbek və s. Əgər dövlət orqanları, məmurlar, deputatlar, nüfuzlu şəxslər nümunə göstərib bu maşınları alsalar, adi vətəndaşlar da alar.

Qaldı ki, keyfiyyət məsələsinə, bu məsələ qiymətlə əlaqəli olan işdir. Əgər tələbat olsa, daha yuxarı sinif maşınların yığılması da mümkün olar.

Üstəlik, məlum olduğu kimi, son illərdə ölkəyə xaricdən on minlərlə köhnə, işlənmiş hibrid maşınlar gətirilib. Əgər vaxtında burada bu modellərin yığımı təşkil olunsaydı indi on minlərlə maşın satmış olardılar. Yenə də gec deyil. Bu maşınlara böyük tələbat var. Xüsusən də, taksi sahəsində.

Yerli avtomobil sənayesinin inkişafı üçün 2 yol var. Birincisi qeyd etdiyimiz dövlət proqramının qəbul olunması və geniş miqyasda və sərfəli şərtlərlə tətbiqi, digəri isə dövlət orqanlarının yalnız yerli yığım avtomobilləri almasının xüsusi qərarla məcburi xarakterə salınması. Bu avtomobillərin tez-tez dəyişilməli olan əsas ehtiyat hissələrinin geniş miqyasda və ucuz qiymətə satış məntəqələrinin təşkil olunması bu işə böyük kömək olardı.

Üstəlik, Naxçıvanda, Hacıqabulda, Neftçalada və Gəncədə minik və yük avtomobillərinin, həmçinin kənd təsərfüfatı texnikalarının yığılması bu sənayenin inkişafına təkan verir. Bu işi genişləndirmək və ölkənin tələbatını tam ödəməklə yanaşı, digər ölkələrə ixrac da etmək olar.

# Qızılca – xof, yoxsa təhlükə?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb.*

***Daha çox uşaqlıq yaşlarında müşahidə olunan qızılca insanlara asanlıqla yoluxa bilən, bütün bədəndə dəri səpgiləri və qripə bənzər əlamətlərə səbəb olan qızılca virusunun yaratdığı yoluxucu xəstəlikdir. Yüksək hərarət və yorğunluqla müşahidə edilən qızılca, yoluxmuş insanlar öskürərkən, asqırdıqda və ya danışarkən ağız suyu damlacıqları vasitəsi ilə ötürülür. Adətən qışın sonu və yazın əvvəlində artan qızılca azyaşlı uşaqlarda tez-tez rast gəlinsə də, peyvənd olunmamış və ya əvvəllər qızılca keçirməmiş böyüklərdə də müşahidə oluna bilər.***









Qızılca xəstəliyinin simptomları virusa məruz qaldıqdan təxminən 8-12 gün sonra yaranır. Adətən qulaq arxasından başlayan və bir neçə saat ərzində baş, boyun və sonra bütün bədənə yayılan qızılca xəstəliyinin simptomları burun axması, asqırma və öskürək kimi soyuqdəymə əlamətləri, yüksək hərarət, zəiflik, göz sulanması, quru öskürək, boğaz ağrısı, yorğunluq, işığa həssaslıq, gözlərin şişməsi və iltihablanması, ağız boşluğunda yaranan boz və ağ rəngdə ləkələr və bədəndə qırmızı səpkilərdir.

İlk simptomlardan təxminən 2-4 gün sonra qızılca səpgiləri başlayır. Bədəndə kiçik, qırmızı-qəhvəyi, səthi və ya qabarıq ləkələr formasında olan qızılca səpgisi adətən yuxarıdan aşağıya doğru yayılır. Səpkilər gövdədə birləşməyə meylli olur, kiçik ləkələr birləşib bötyük ləkələr əmələ gətirir, amma üz, boyun, əl və ayaqlarda ayrı-ayrı səpki formasında olur. Qızılca səpkilərinin yayılmağa başladığı günlərdə qızdırma 40-41 dərəcəyə qədər yüksələ bilər. Səpmə təxminən 4 gün davam edir və yenə yuxarıdan aşağıya doğru azalmağa başlayır. Səpkilər solduqca xəstənin qızdırması da aşağı düşür.

Bütün yaş qruplarında, xüsusən də uşaqlıqda müşahidə olunan bilən qızılcanın peyvənd olmayan insanlarda çox yayılması iddia edilir, lakin peyvənd olan insanların da bu xəstəliyə yoluxması sirr deyil. Həmçinin, iddia edilir ki, peyvənd olunmuş insanlar xəstəliyi yüngül keçirir, lakin müşahidələr göstərir ki, peyvənd olunmuş, lakin xəstəliyi ən ağır formada keçirən insanlar da az deyil. Bunun da başlıca səbəblərindən biri immun problemləridir.

Qızılca, immun sistemi zəif olan insanlarda ağırlaşmalara səbəb ola bilər. Lakin immuniteti güclü olan insan üçün qızılca adi soyuqdəymə effekti verən xəstəlikdir. Qızılcaya yoluxan adama antibiotik müalicəsi etmək onun immun sistemini zəiflətmək, xəstəliyin güclənməsinə şərait yaratmaqdır. Qızılca olan insan ilk növbədə bol maye qəbul edilməlidir, qızdırmanı salan vasitələrdən istifadə edilməlidir. Öskürək və ya boğaz ağrısı üçün tənəffüs yollarını rahatlaşdırmaq məqsədi ilə nəfəsaçıcı sprey, boğazyumşaldığı vasitələr istifadə edə bilər. Həmçinin, qida rasionuna A vitamini bol olan qidalar daxil etmək lazımdır. Qızılcaya yoluxmanın əsas səbəblərindən biri də bədəndə A vitamini çatışmazlığıdır.

Qaraciyər, balıq, yağ, yumurta sarısı, süd, pendir, qaymaq, böyrək, mandarin, limon, portağal kimi sarı meyvələr, balqabaq, brokoli, yerkökü, ispanaq, kələm, göyərti, qırmızı bibər, kələm, cəfəri, pazı, kartof kimi tərəvəzlərdə A vitamini boldur. Tərəvəz və ya meyvənin rəngi nə qədər tünd olarsa, tərkibində daha çox beta-karotin olur. Beta-karotin tərəvəzlərdə olduqda, deməli o qidada yağ və xolesterin yoxdur. Bu qidalar yağla yeyilərsə, onlardan alınan A vitamininin bədənə sorulması artır. Bədənin digər vacib vitaminlərə, o cümlədən A vitamininə olan gündəlik ehtiyacını əldə etməyin ən yaxşı yolu, meyvə, tərəvəz, zənginləşdirilmiş süd məhsulları, lobya, mərcimək və tam taxıl kimi paxlalılar yeməkdir.

Yeri gəlmişkən, bəzi ölkələrdə 1 yaşındadək uşaqlara qızılca peyvəndi məsləhət görülmür, səbəbi isə ana südü ilə qidalanması və anadan qızılca antitellərini süd vasitəsi ilə qəbul etməsidir. Ötən il İstanbul Tibb Fakültəsi Doğum Klinikasında 30 yenidoğulmuş və onların anaları arasında bir araşdırma aparıldı. Doğuşdan dərhal sonra anadan və göbək bağından, dördüncü, altıncı və doqquzuncu isə körpələrdən qan götürüldü. Bütün nümunələrdə qızılca IgG antikorları tədqiq edildi. Ana və göbək bağı qanında qızılcaya qarşı anticisim pozitivlik nisbətləri 100% nəticə verdi. Dördüncü ayda bu nisbət 90%, altıncı ayda 53%, doqquzuncu ayda 6,6% olur. Yəni ana südü əmdiyi ilk il süd, körpənin qızılcaya qarşı peyvəndi rolunu oynayır.

Qeyd edək ki, son günlər qızılca xəstəliyindən vəfat etməsi diaqnozu qoyulan üç uşaq ölümü qeydə alınıb. Sabirabad rayonunda 2022-ci il təvəllüdlü uşağın, Qaradağ rayonu Qobustan qəsəbəsində yaşayan 9 yaşlı Rinat Cahangirlinin, Kürdəmir rayonunda 4 yaşlı Rüfət Qəriblinin qızılcadan vəfat etdiyi bildirilir. Dövlət qurumları qızılca peyvəndi olmayan şəxslərin bu xəstəliyi ağır keçirdiyini və peyvəndlmənin mütləq olduğunu bildirirlər. Ölkədə son 6 ayda 284 yoluxma halı qeydə alınıb. Yoluxmaların demək olar ki, yarısı Şəki-Zaqatala rayonlarının payına düşür.

Qızılca üçün xüsusi müalicə yoxdur. Simptomları yüngülləşdirmək üçün yoluxmuş uşaq çoxlu maye qəbul etməli, kifayət qədər istirahət etməli və infeksiyanın yayılmasının qarşısını almaq üçün məktəbdən və ya uşaq baxçasından uzaq durmalıdır. Qızdırma olduqda, uşağı rahatlatmaq üçün həkim məsləhəti ilə temperatur salıcı dərmanlar istifadə edilə bilər. Qulaq infeksiyası, ishal, pnevmaniya, ensefalit kimi ağırlaşmalar yarana biləcəyi üçün qızılcalı uşaqlar həkim tərəfindən yaxından izlənilməlidir. Səpgilər göründükdən sonra dörd gün ərzində uşağınızı başqalarından uzaq tutmaq son dərəcə vacibdir. İmmuniteti zəif olanlar tam sağalana və bütün simptomlar yox olana qədər təcrid olunmalıdırlar. Qızılca infeksiyası və əlaqəli ağırlaşmalar bir neçə həftə davam edə bilər.

***Lalə Mehralı***

SON SƏHİFƏ

SƏS

2 dekabr
2023-cü il

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!




*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# "Erkən nikah: Məsuliyyətsiz addım və insan hüquqları

***Yetkinlik yaşına çatmamış uşaqların evləndirilməsi, onların fiziki, psixoloji və sosial inkişafına ciddi ziyan vura biləcək bir məsələdir. Həmin yaş qrupundakı uşaqların cins və intellektual imkanları tam inkişaf etməyib. Bu səbəbdən onların özlərini qorumaq və inkişafını dəstəkləmək əsas prioritet olmalıdır.***



Bu yaş qrupuna aid uşaqların evləndirilməsi praktikası hüquqi və etik normativlərə də qarşıdır. SİA mövzu ilə bağlı ekspertlərin fikirlərini öyrənib.

Müstəqil Həmkarlar ictimai birliyinin sədr müavini Əhməd Rəhmanov bildirib ki, bu məsələ ilə bağlı təməl problemlərdən biri məhz sosial rifahdır: "İlk növbədə ölkədə sosial rifah qalxmalıdır. Azyaşlıların ailə qurması hallarına, əsasən, rayon yerlərində rast gəlinir. Valideyn qızına təhsil verib işlə təmin etmək əvəzinə, bir az pulu olan adam tapan kimi onu evləndirir ki, qızı heç olmasa bir tikə çörək sahibi olsun. Bakı və ətraf rayonlarda yaşayan camaat, kasıb təbəqə azdan-çoxdan iş tapır, qız övladını oxutdurmağa müəyyən qədər pulu olur (Repetitor pulu, məktəb pulu və s.). Rayonlarda isə Bakıda olduğu qədər iş yeri yoxdur. Deməli, onlar həyatda primitiv icma quruluşu ilə yaşayır. Odur ki, övladı oxutdurmalı və ən əsası ona iş yeri verməliyik".

Məsələnin psixoloji tərəfinə isə psixoloq Aytən Ələkbərova öz sözləri ilə açıqlıq gətirib: "Biz nə qədər erkən evliliyə yox desək də, təəssüflər olsun ki, hələ də ölkəmizdə erkən evliliklər həyata keçirilir. Bu gün biz sosial verilişlərdə şüuru tam kəsmədiyi, məsuliyyəti tam dərk etmədiyi halda edilən erkən evliliyin bəlalarını görürük. Tarixçəyə nəzər saldıqda görürük ki, bu, bir neçə il bundan öncənin fəsadıdır. Bizim verdiyimiz psixoloji məsləhətlər yəqin ki, özünü növbəti 10 ildə göstərəcək. Ümumiyyətlə, insan şüurunun əsas 3 funksiyası var: "Konqitiv, tənzimetmə və kommunikativ (birbaşa məlumat vermək). Psixoloji tədqiqatlar da bunu göstərir ki, həmin funksiyalar bu və ya digər formada psixi inkişafın bütün mərhələlərində özünü göstərə bilir. Burada fərdi şüur hər şeydən əvvəl nəzərdə tutulduğuna görə şüurun əmələ gəlməsi və inkişafı onların keyfiyyətcə yeni xüsusiyyətini kəşf etməsinə gətirib çıxarır. Deməli, biz, ilk növbədə, şüurumuzu düzgün formada inkişaf etdirməliyik və inkişaf edən şüura görə övladlarımızı böyütməliyik. Bu prosesdə unutmamaq lazımdır ki, artıq övladımız Z qurşağı nəslinin nümayəndəsidir".

Məsələnin hüquqi tərəfi isə hüquqşünas Səadət Bənənyarlı tərəfindən aydınlaşdırıldı: "Qanunvericilikdə yetkinlik yaşına çatmamış şəxslərin nikaha daxil olması qadağandır. 18 yaşından sonra vətəndaş qaydalara və hüquqlara malik olur. Həmin şəxslər ərizələr və digər sənədləşmə ilə nikaha daxil ola bilərlər.

Yetkinlik yaşına çatmayıb, ancaq əlahiddə vəziyyət yaşanarsa, müvafiq icra hakimiyyətləri, Vətəndaş Vəziyyətləri Aktlarının Qeydiyyatı idarəsi kimi yerlərdə icazə verilə bilər. Elə hallar olur ki, müxtəlif şeylər nəzərə alınaraq icra hakimiyyətləri buna icazə verir. 17 yaş və ondan kiçik heç kim nikaha daxil ola bilməz. Bunun əksinə hər hansı bir addım atılırsa, hətta icazəsiz olaraq belə bir nikah bağlanırsa, həmin şəxslər Azərbaycan Respublikası Cinayət Məcəlləsinə görə cinayət xarakteri daşıyırlar. Bunun üçün məsuliyyət daşıyırlar və cəzalandırılırlar.

Hətta bugünkü gündə cəzaçəkmə müəssisələrində bəzi məhkumlar var ki, onları insan oğurluğu ilə günahlandırmaq olar. Hansı ki, onlar həddi-büluğa çatmamış qızı qaçırırlar və yaxud onu cinsi əlaqəyə məcbur edirlər. Bu vəziyyət məcəllədə öz əksini tapıb. Əlahiddə başqa addımlar atılıbsa, bunun üçün də məsuliyyət daşınır. Belə vəziyyətdə əlavə olaraq qarşı tərəfin valideynləri də məsuliyyət daşıyırlar.

Nəzarət isə təbii ki, vətəndaş cəmiyyətində və polisdədir. Hətta bu məsələ ilə bağlı məktəblərin, tədris ocaqlarının üzərinə də məsuliyyət düşür. Məktəbin idarə heyəti tam dəqiq müəyyən edə bilir ki, kim məktəbə gəlir, hansı uşaqlar dərsdən yayınır, nə üçün yayınır və s. Hətta yaxın zamanlarda məktəblərin birində sinif rəhbərinin diqqəti nəticəsində bir qız uşağı valideynləri tərəfindən evləndirilməkdən xilas edildi. Sinif rəhbərinin aktivliyi nəticəsində həmin qız uşağı bu gün təhsilinə davam edə bilir.

Yenə də bu işdə həmin şəxslərə, qızlara kömək, birinci növbədə, vətəndaş cəmiyyətindən, daha sonra da aidiyyatı strukturlardan gözlənilir".

***Özləm Quliyeva***

# "MTK ilə vətəndaş arasındakı problemin kökü ödənilən pulda deyil, idarəetmədədir"

"Pulların hansı qaydada ödənilməsinin mövcud problemlərlə əlaqəsi yoxdur. Təkcə Bakı və Abşeron ərazisində 2000-dən artıq yeni tikilmiş çoxmənzilli yaşayış binası vətəndaşların istifadəsinə verilib. Digər şəhərlərdə də yeni tikili binaların inşası davam edir. O binalarda işləyən xadimələrin, mühafizənin, digər işçi heyətinin və lift xərclərinin qarşılanması üçün mənzil sahiblərindən kommunal pulları yığılmalıdır. Bu, tək Azərbaycanda deyil, dünyanın hər yerində belədir. Hətta digər ölkələrdə əgər binalar fərdi şəkildə idarə olunursa, kommunal xərclər daha bahadır. Kommunal pulların nağd, yaxud nağdsız şəkildə ödənməsi vətəndaşın problemini həll etmir. Çünki vətəndaş hər iki halda bu pulu ödəyir". Bu sözləri SİA-ya əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev deyib.

Mütəxəssis düşünür ki, MTK ilə vətəndaş arasındakı problemin kökü ödənilən pulda deyil, idarəetmədədir: "Sakinlər toplaşaraq Mənzil Mülkiyyətçiləri Müştərək Cəmiyyətini yaratmalı, idarəetməni də özləri həyata keçirməlidirlər. Bakıda eyni ərazidə yeni tikili çoxmənzilli bina, tam yanında köhnə yaşayış binası, onun da yanında fərdi həyət evlərindən ibarət yaşayış massivləri var. Yeni tikililəri komendantlar, köhnələri mənzil istismar idarələri, fərdi həyət evlərinin bir hissəsini isə bələdiyyələr idarə edir. Bir şəhərdə üç yanaşı idarəetmə sistemi var və heç biri



**MÜNASİBƏT**

effektiv deyil. MTK vətəndaşlardan kommunal pulu yığır, amma sadəcə öz həyətini təmizləyir, sakinlər köhnə binanın həyətində avtomobillərini saxlayırlar, hansı ki, o əraziləri də mənzil istismar idarələri təmizləyir və s. İdarəetmə düzəlməsə, pulların hansı formada yığılmasının keyfiyyətə təsiri olmayacaq. Narazılıq yenə olduğu kimi qalacaq".

***Ləman Sərraf***

# DİQQƏT: Bu şəxslər qızılca əleyhinə peyvəndlənməyəcək

"Qızılcaya yoluxan şəxslərlə təmasda olanlar əvvəllər bu xəstəliyi keçiribsə, eyni zamanda iki doz peyvənd vurdurubsa, onun yenidən vaksin olunmasına ehtiyac yoxdur". SİA xəbər verir ki, bunu TƏBİB-in Yoluxucu xəstəliklər və infeksion nəzarətin təşkili şöbəsinin baş məsləhətçisi Turan İbrahimova deyib. Onun sözlərinə görə, xəstəliyə yoluxan şəxslə təmasda olanın xəstəliyi keçirmədiyinə dair sübutu yoxdursa və heç vaxt peyvənd vurdurmayıbsa, vaksinasiya üçün müraciəti tövsiyə edilir: "Həmin şəxs təmasdan sonra ilk 72 saat ərzində peyvənd vurdurmalıdır. Peyvəndlər orta tibb ixtisası olan şəxslər tərəfindən vurdurulmalıdır".



T.İbrahimova xatırladıb ki, TƏBİB-in tabeliyində olan xəstəxanalarda qızılca ilə əlaqəli yatan şəxslərin stasionar müalicəsi icbari tibbi sığorta çərçivəsində ödənişsiz həyata keçirilir: "Bütün peyvəndlər istehsalçı ölkələrin tövsiyəsinə uyğun şəraitdə saxlanılır və narahatlıq üçün heç bir əsas yoxdur".

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**